RUSİYANIN KRIMI İŞĞALI İLƏ BAŞLAYAN PROSES

# DÖVLƏTLƏR SİLAHLANMA YARIŞINDA



Bu gün dünya müdafiəyə 2,5 trilyon avro xərcləyir ki, bu da İspaniyanın ÜDM-indən iki dəfə çoxdur. Hazırda dünyada 59 açıq münaqişə var ki, bu da İkinci Dünya müharibəsindən bəri ən yüksək göstəricidir.

**2025-ci ildə ən yüksək hərbi xərclərə malik ölkələrin siyahısına 962 milyard dollarlıq büdcə ilə ABŞ başçılıq edir. Bu rəqəm, ikinci yerdə qərarlaşan Çinin hərbi büdcəsini (246 milyard dollar) təxminən dörd dəfə üstələyir.**

**Ümumilikdə, ilk 15 ölkənin hərbi büdcəsi iki trilyon dolları ötür ki, bu da dünyadakı ümumi müdafiə xərclərinin təxminən 75 faizinə bərabərdir. ABŞ və Çindən sonra Rusiya, Almaniya və Böyük Britaniya da ilk beşlikdə yer alırlar.**

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

26 İYUL ŞƏNBƏ 2025 № 28 (4229) Qiyməti - 60 qəpik www.kaspi.az






## DÜNYAYA SƏS SALAN ŞUŞA FORUMU

Üç gün davam edən III Şuşa Qlobal Media Forumu sözün əsl mənasında adının haqqını verməyə oldu. Prezident İlham Əliyevin dəqiq, aydın, qətiyyətli və müstəqil xarici siyasət kursunu tam dolğun əks etdirən bəyanatları ilə.

SƏHİFƏ 2-də




## MİNALARDAN NƏ VAXT QURTULACAĞIQ?

Minalardan və partlamamış hərbi sursatlardan zərər çəkən ölkələr arasında Azərbaycan ilk sıralardadır. Minalar hələ də işğaldan azad olunan torpaqlarımızda insanların həyatı üçün ciddi təhlükə mənbəyi olaraq qalır.

SƏHİFƏ 13-də



## MTK-LARLA PROVAYDERLƏR ARASINDA QARŞIDURMA

İKT İnformasiya Mərkəzinin direktoru Fərid Kazımov deyir ki, şirkətlər bina tikərkən maksimum qənaət etmək istəyirlər. Bu zaman aşağı keyfiyyətli kabellər quraşdırırlar: "Onların məqsədi yüksək keyfiyyətli internet vermək deyil".

SƏHİFƏ 7-də

GÜCLÜ TƏRƏFDAŞLIQ ÜÇÜN BÖYÜK POTENSİAL MÖVCUDDUR

# MÜNASİBƏTLƏRDƏ YENİ MƏRHƏLƏ

Donald Tramp sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Şuşa Forumundakı çıxışından bir hissəni paylaşıb. Ağ Ev rəhbərinin bu addımı onun Azərbaycan liderinə münasibətinin göstəricisi kimi dəyərləndirilir.



### ORTAQ DƏYƏRLƏR VƏ QARŞILIQLI MARAQLAR

Prezident İlham Əliyevin Donald Tramp dönəmində ikitərəfli münasibətlərə dair səsləndirdiyi fikirlər Azərbaycan-ABŞ əlaqələrinin mövcud durumuna aydınlıq gətirir. Dövlət başçısının Ağ Ev rəhbəri ilə bağlı fikirləri iki ölkəni birləşdirən dəyərlər və qarşılıqlı maraqların ortaq nöqtələrinin hansılar olduğunu bir daha göstərir.

### "VAŞİNQTONDAN MÜSBƏT MESAJLAR ALMIŞIQ"

İlham Əliyev III Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bildirib ki, ABŞ və Azərbaycan normal münasibətlərə qayıdır: "İndi biz hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensialı görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir".

SƏHİFƏ 3-də

ABŞ-DƏ PROQRAM MÜHƏNDİSİ KİMİ ÇALIŞAN AZƏRBAYCANLI

## "GOOGLE"DA İŞLƏDİ, "VEKTOR"U YARATDI

"İstedad başlanğıcdır, amma inkişaf və nəticə yalnız zəhmətlə gəlir", - deyir. Düşünür ki, istedadını kəşf edən və öz üzərində çalışan insan mütləq uğur qazanır. Bu yalnız riyaziyyat üçün deyil, həyatın bütün sahələrində keçərlidir.



Biri riyaziyyatda güclüdürsə, digəri ünsiyyət bacarığı ilə istənilən problemi həll edə bilər. Hesab edir ki, əsas olan insanın özünü tanıması, bacarıqlarını kəşf etməsi və onların üzərində çalışmasıdır. Müsahibimiz ABŞ-də proqram mühəndisi kimi çalışan "Vektor" təhsil texnologiyaları platformasının müəllifi Altun Şükürlüdür.

SƏHİFƏ 8-9-da



## MAAŞ ARTIMI İLƏ BAĞLI MARAQLI NÜANSLAR

Bakıda orta aylıq əməkhaqqında səkkiz faizlik artım qeydə alınıb. Bu artım daha çox özəl sektoru əhatə edir. Maaş artımı və yüksək əməkhaqqı göstəricilərinə görə neft və maliyyə sektoru digər sahələrlə müqayisədə öndədir.

SƏHİFƏ 12-də



## VERGİ GÜZƏŞTLƏRİNİN MÜDDƏTİ UZADILACAQ?

2026-cı ilin yanvar ayından etibarən gəlir vergisi üzrə tətbiq edilən güzəştlərin müddəti başa çatır. Bu, 2019-cu ildən qüvvədə olan yeddi illik güzəşt dövrünün sonu deməkdir. Hazırda əməkhaqqı 8000 manata qədər olan şəxslər gəlir vergisindən azaddır.

SƏHİFƏ 6-da



## MƏDƏNİYYƏT VƏ TƏBİƏTİN HARMONİYASI

Malmö İsveçin üçüncü böyük şəhəridir. Ölkənin cənubunda, Skane bölgəsində yerləşir. Hazırda şəhərdə 600 mindən çox insan yaşayır. Əhalinin 40%-ni miqrantlar təşkil edir. Avropanın ən "immiqrant" şəhərlərindən biri hesab olunur.

SƏHİFƏ 15-də



SOCAR-la "Özbəkneftqaz" arasında mühüm razılaşma

SƏHİFƏ 10-da



Cəbrayıla növbəti köç gerçəkləşib

SƏHİFƏ 2-də



Xəstələrin dərman dərdi

SƏHİFƏ 11-də



Artan pul həm də risk deməkdir

SƏHİFƏ 14-də



Transfer bazarında hərəkətlilik pik həddə

SƏHİFƏ 16-da



## Cəbrayıla növbəti köç gerçəkləşib

Cəbrayıl şəhərinə növbəti köç prosesi gerçəkləşib. Şəhər daha 50 ailə olmaqla, 199 nəfərə qucaq açıb. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Həmçinin rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərinə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Köçürülən ailələrin dövlətimizin başçısının göstərişi əsasında Cəbrayıl şəhərində yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb. Mənzillərin açarlarının təqdim edilməsi mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Ailələr açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.



## Corc Dik Azərbaycandakı fəaliyyətini başa çatdırıb

“Son altı il ərzində Azərbaycanla İsrail arasında mühüm və tarixi hadisələr baş verib. İki xalq arasında münasibətlər daha da dərinləşib və yeni mərhələyə qədəm qoyub”. AZƏRTAC xəbər verir ki, bu sözləri İsrail Dövlətinin Azərbaycandakı səfiri Corc Dik ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar keçirilən mətbuat konfransında jurnalistlərə açıqlamasında deyib.

“Şuşanı ziyarət edən ilk israilli səfir olmaq mənim üçün xüsusi fəxrdir. İsrail daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən biri olub. Çünki biz dostluğun yalnız asan günlərdə deyil, çətin zamanlarda da sınandığına inanırıq. Azərbaycan xalqının göstərdiyi bu humanist münasibəti heç vaxt unutmayacağam”, - deyə səfir bildirib.

O qeyd edib ki, İsrail-Azərbaycan münasibətləri son illər ərzində daha uca zirvələrə yüksəlib. “Enerji və təhlükəsizlik sahələrindəki əməkdaşlıq əlaqələrimizin əsas sütunları olaraq qalır və inanıram ki, qarşıdakı illərdə bu əlaqələr daha da genişlənəcək. 2025-ci il üçün qarşıya qoyduğumuz əsas hədəflərdən biri 50 min israilli turistin Azərbaycana səfər etməsini təmin etməkdir”, - deyə diplomat vurğulayıb.

# DÜNYAYA SƏS SALAN ŞUŞA FORUMU



**Şuşa Qlobal Media Forumu sözün əsl mənasında adının haqqını vermiş oldu. Prezident İlham Əliyevin dəqiq, aydın, qətiyyətli və müstəqil xarici siyasət kursunu tam dolğun əks etdirən bəyanatları ilə.**

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Xankəndidə “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı səsləndirdiyi fikirlər dünyada böyük rezonansa səbəb olub. Aparıcı media orqanları dövlət başçısının qlobal məsələlər ilə bağlı fikirlərinə geniş yer veriblər. Bununla yanaşı, forum sonrası səsləndirilən bəyanatların əks-sədası olaraq müəyyən proseslərin də şahidi oluruq.

### MİXAİL QUSMANA QARŞI QƏRƏZLİ QƏRAR

Məsələn, Mixail Qusman TASS-ın baş direktorunun birinci müavini vəzifəsindən azad edilib. Müvafiq sərəncamı iyulun 24-də Rusiyanın Baş naziri Mixail Mişustin imzalayıb. Qusman 30 ilə yaxın TASS strukturlarında işləyib, Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi və Rusiya Federasiyasının Əməkdar jurnalisti titullarına malikdir, UNESCO-nun Beynəlxalq Kommunikasiyaların İnkişafı Proqramının Rusiya Komitəsinə rəhbərlik edir. Sərəncamda hansısa səbəb göstərilməsə də, Rusiya mediasında bununla bağlı yer alan məlumatlar qərarın haradan qaynaqlandığına aydınlıq gətirir. Qeyd edək ki, Mixail Qusman digər məşhur rusiyalı politoloq Sergey Markovla bərabər Şuşa Qlobal Media Forumuna qatılıb. Qusman Azərbaycan Prezidentinin uğurlu xarici siyasəti haqqında dəyərli fikirlər səsləndirib. Moskva-Bakı münasibətlərində yaşanan soyuqluqdan dolayı onun bu mövqeyinin bəzi rəsmi dairələrin xoşuna gəlmədiyi iddia olunur. Hərbi müxbir Yuri Kotenok Mixail Qusmanın işdən çıxarılmasına münasibət bildirərək onun bakılı olduğunu və Azərbaycanın maraqlarını müdafiə edə biləcəyini xatırladıb. Jurnalistin fikrincə, İlham Əliyevə münasibətinə görə TASS-ın işdən çıxarılan baş direktorunun birinci müavini xarici agentə bərabər tutula bilər.



Mixail Qusman

### “XARİCİ AGENT” OVU

Rusiyalı politoloq Sergey Markov da hədəfə alınanlar arasındadır. Qeyd edək ki, o, bu forumu İlham Əliyevin fikirlərini eşitmək və müxtəlif ölkələrdən olan həmkarları ilə ünsiyyət qurmaq üçün unikal imkan adlandırıb, həmçinin Azərbaycan lideri haqqında fikirlərini bölüşüb. “Şübhəsiz ki, o, müasir dünyanın ən təcrübəli liderlərindən biridir. Qalib ölkəni təmsil edən lider. Bir çox liderlər ondan bilmək istərdilər ki, qələbənin sirri nədir? Biz də bu sualları prezidentə vermək istəyirik. O, çox müdrik, bacarıqlı rəhbərdir”,- Markov deyib. Məhz bu fikirlərinə görə, onun da xarici agent elan olunmasına dair çağırışlar səsləndirilir, linç kampaniyası aparılır.

### RƏSMİ MOSKVANI “ŞOKA SALAN” UKRAYNA BƏYANATI

Azərbaycan Prezidentinin Ukraynada davam edən müharibə ilə bağlı mövqeyi də dünya mediası tərəfindən çox böyük maraqla qarşılanıb. Ukraynalı məşhur jurnalist Dmitro Qordonun Şuşa Qlobal Media Forumunda iştirakı və Prezident İlham Əliyevə ünvanladığı sualın cavabı həm Ukrayna və Rusiyada, həm də Qərb mətbuatında geniş şərh olunmaqdadır. Hətta Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Qordonun bu tədbirdə iştirakından “şoka düşdüyünü” bəyan edib. Qeyd edək ki, Prezident İlham Əliyevin Ukrayna müharibəsi ilə bağlı “heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq” çağırışı sadə ukraynalılar arasında da böyük rəğbətlə qarşılanıb. “Ukrinform”, “RBK-Ukrayna”, “İnterfaks-Ukrayna”, “UNİAN”, “Azadlıq” radiosunun Ukrayna redaksiyası, “Qordon” nəşri, “Korrespondent”, “Tsensor” informasiya agentlikləri, xəbər portalları və Ukraynanın digər media orqanlarında Azərbaycanın dövlət başçısının fikirləri dərc edilib. Ukrayna mediası, həmçinin Azərbaycanın işğalda olan ərazilərinin müharibə yolu ilə azad edilməsinə, Rusiyanın Ukraynaya qarşı apardığı müharibəyə dair fikirlərinə yer ayırarkən yazıblar ki, Prezident İlham Əliyev Ukraynaya heç vaxt işğalla razılaşmamağı məsləhət görüb. “İndi verdiyim cavab o zamankı cavabımdan fərqli olmayacaq və düşünürəm ki, bu, Ukrayna xalqının istəkləri ilə də səsləşir – heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi. Daha doğrusu, biz bu prosesi belə görürdük”, - deyə məqalələrdə Prezident İlham Əliyevin çıxışına istinadla yazılır.

Göründüyü kimi, Şuşa Qlobal Media Forumu sözün əsl mənasında adının haqqını vermiş oldu. Azərbaycan Prezidentinin dəqiq, aydın, qətiyyətli və müstəqil xarici siyasət kursunu tam dolğun əks etdirən bəyanatları ilə.

# ABŞ-Azərbaycan münasibətlərində YENİ MƏRHƏLƏ





**ABŞ Prezidenti Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışından bir hissəni paylaşıb. Ağ Ev rəhbərinin bu addımı Azərbaycan liderinə, onun siyasətinə münasibətinin göstəricisi kimi dəyərləndirilir.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan Qərb dünyası ilə münasibətlərini yenidən qurur. Tarixi qələbəmizdən sonra rəsmi Bakı qarşılıqlı əlaqələrdə bərabərsəviyyəli tərəfdaşlıq prinsipinə xüsusi önəm verir. Bu mövqe dünyanın aparıcı dövlətləri, qurumları tərəfindən də nəzərə alınır və təqdirlə qarşılanır. Çünki hazırda beynəlxalq səviyyədə müstəqil və heç kimdən asılı olmayaraq milli maraqlara əsaslanan siyasət yürüdən ölkələrin sayı elə də çox deyil. Xüsusilə Azərbaycanın da yerləşdiyi geosiyasi məkan daxilində.

### BİZİ BİRLƏŞDİRƏN DƏYƏRLƏR

Bu münasibət özünü Bakı-Vaşinqton tərəfdaşlığında da göstərir. III Şuşa Qlobal Media Forumunda çıxışı zamanı Prezident İlham Əliyevin Donald Tramp dönəmində ikitərəfli münasibətlərə dair səsləndirdiyi fikirlər Azərbaycan-ABŞ əlaqələrinin mövcud durumuna aydınlıq gətirir. Dövlət başçısının Ağ Ev rəhbəri ilə bağlı fikirləri iki ölkəni birləşdirən dəyərlər və qarşılıqlı maraqların ortaq nöqtələrinin hansılar olduğunu bir daha göstərir. "Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim; onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı. O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir", - Prezident İlham Əliyev bildirib. Göründüyü kimi, Azərbaycan da dünyada münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır və bu istiqamətdə əməli fəaliyyətləri ilə dünyaya nümunədir. İsrail-Suriya, Türkiyə-İsrail, daha əvvəl isə Rusiya-NATO və Rusiya-ABŞ arasında gərginliklərin azaldılması ilə bağlı danışıqlar məhz Bakının vasitəçiliyi ilə təşkil olunub. Digər bir məqam isə bu gün beynəlxalq səviyyədə həyacan təbili çalınan ənənəvi ailə modelinin qorunmasına iki ölkə liderinin oxşar mövqedən yanaşmasıdır.

## DÜNYA SİYASƏTİNDƏ NADİR GÖRÜLƏN HADİSƏ

Prezident İlham Əliyev çıxışında Azərbaycanın keçmiş administrasiya ilə yaşadığı gərginliklər və ölkəmizə qarşı təbliğatın əsas ruporları olan təşkilatlarla mübarizədə Trampın fəaliyyətinə də toxunub. "Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun", - deyə Prezident İlham Əliyev vurğulayıb. Dövlət başçısı bildirib ki, ABŞ və Azərbaycan normal münasibətlərə qayıdır: "İndi biz hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensial görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir". Rəsmi Bakı ümid edir ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Xankəndidə Şuşa Qlobal Media Forumundakı çıxışından bir hissəni paylaşıb. Ağ Ev rəhbərinin bu addımı Azərbaycan liderinə, onun siyasətinə münasibətinin göstəricisi kimi dəyərləndirilir. Qeyd edək ki, dünya siyasətində bu cür hadisələr çox nadir baş verir. Xüsusilə də söhbət dünyanın supergücü olan bir dövlətin rəhbərindən gedirsə...

Prezident İlham Əliyev də bu münasibəti dəyərləndirib. O, Donald Trampa öz sosial şəbəkə hesabında onun Şuşa Qlobal Media Forumundakı çıxışını paylaşdığına görə təşəkkür edib: "Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviq edilməsi ilə bağlı baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm".

### AVROPA DA SƏHVLƏRİNİ ANLAYIR

Bakı-Vaşinqton münasibətlərində yaşanan müsbət dinamika özünü Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə əlaqələrində də göstərməyə başlayıb. Aİ Azərbaycanı enerji təhlükəsizliyinin təminində özünün mühüm strateji tərəfdaşı kimi qəbul edir. Mövcud reallıq Avropanı da Bakı ilə qarşılıqlı münasibətlərdə yol verdiyi səhvlər barədə düşünməyə vadar edir. Təbii ki, bu səhvlərin əksəriyyəti tarixi qələbəmizdən sonra Ermənistan üzərindən Azərbaycana qarşı həyata keçirilən təxribatçı fəaliyyətlərlə bağlıdır. Lakin bu fəaliyyətlərin nəticəsiz qaldığını, əksinə, Aİ-nin özünün maraqlarına zidd olduğunu elə avropalı deputatlar etiraf edirlər. Almaniya üçün Alternativin (AfD) Avropa Parlamentindəki nümayəndə heyətinin rəhbərinin müavini, İnsan Hüquqları Komitəsinin koordinatoru Tomaş Fröhlix bildirir ki, Ermənistanın Aİ-yə daxil olması hazırda tamamilə qeyri-realdır. "Mən bunu Ermənistana böyük rəğbət bəsləyən şəxs kimi deyirəm", - deyə o, Avstriyanın "Aufı" portalı üçün yazdığı məqalədə bildirib. Fröhlix Ermənistanın üzvlüyünün Aİ-nin strateji maraqlarına zidd olduğunu belə izah edib: "Bu, digər məsələlərlə yanaşı, Azərbaycanın Aİ üçün mühüm rol oynaması ilə bağlıdır. Aİ-nin Azərbaycanla ümumi maraqları var, xüsusən də Rusiya faktiki olaraq enerji təchizatçısı olmaqdan çıxdıqdan sonra. Bu kontekstdə Azərbaycan qismən öz yerini tutub və onun Brüssel üçün əhəmiyyəti artıb".



## "BİZ HÖRMƏT İSTƏYİRİK"

Yeri gəlmişkən, Şuşa Forumunda Prezident İlham Əliyev də Azərbaycanın Aİ ilə münasibətlərinə toxunub. "Biz öz həyatımızı yaşayırıq, öz iradəmizi təlqin etmirik. Biz avropalılara özünü necə aparmağı, necə evlənməyi və necə yeməyi öyrətmirik. Lakin eyni münasibəti də özümüz üçün istəyirik. Biz hörmət istəyirik. Biz istəyirik həyatımıza, torpağımıza anlayışla yanaşsınlar və biz Azərbaycan xalqının bizdən istədiyini edirik. Beləliklə, səmimi desək, biz Avropada ictimai rəyə təsir göstərmək səylərimizi də artıq kənara qoymuşuq. Biz bunun vaxt itkisi olduğunu düşünürük", - dövlət başçısı bildirib.

Prezident İlham Əliyevin də bəyanatından göründüyü kimi, Azərbaycanın artıq hansısa qurumda, təşkilatda özünə qarşı olan münasibəti dəyişməyə ehtiyacı yoxdur. Çünki Azərbaycan güclü, müstəqil və özünü tamamilə təmin edən bir ölkədir. Bakı ilə əməkdaşlıqda maraqlı olanlar üçün qəbul etməli olduqları ən mühüm reallıq da məhz budur: güclü, müstəqil Azərbaycan dövləti.



# PAŞİNYAN-KİLSƏ SAVAŞINDA MARAQLI MƏQAMLAR

Paşinyan II Qareginin kilsəyə rəhbərliyinə son qoymaqla kifayətlənmək niyyətində deyil. Bir müddətdir ki, o, erməni tarixinin ən qədim və köklü institutunda islahatlardan danışır, II Qareginin yerinə başqa bir ruhani şəxsin seçiləcəyindən bəhs edir.



RÜSTƏM QARAXANLI

Ermənistanda hökumətlə Erməni Apostol Kilsəsi arasında münaqişə davam edir və yeni çalarlar alır. Baş nazir Nikol Paşinyan etdiyi paylaşımda kilsənin tarixində və strukturunda görünməmiş islahatlar vəd edir. Hökumət başçısı katolikos II Qareginin kilsəyə rəhbərliyinə son qoymaqla kifayətlənmək niyyətində deyil. Bir müddətdir ki, o, köklü institutun islahatlardan danışır və II Qareginin yerinə başqa bir ruhani şəxsin seçiləcəyindən bəhs edir. Ancaq son paylaşımında Paşinyan katolikosun tutduğu mövqedən uzaqlaşdırılmasından sonra erməni kilsəsinin müvəqqəti olaraq rəhbərsiz idarəçilik formasını da təqdim edir. Baş nazirə görə, bu "keçid müddəti" Erməni Apostol Kilsəsinin "erməni kanonik kitabı"nın tələblərinə cavab verməsinədək davam edəcək.

### PARLAMENT SEÇKİLƏRİ ÜÇÜN "KATOLİKOS SEÇİMLƏRİ"

Paşinyanın kilsəyə qarşı "səlib yürüşü"nün gələn il keçiriləcək parlament seçkiləri ərəfəsinə təsadüf etməsi aydın göstərir ki, hakim qüvvə yaxın bir il ərzində ruhanilərin həyatını ən azı iflic etmək niyyətindədir. Paşinyan üçün bu, həyati əhəmiyyət daşıyan plandır. Çünki erməni tarixində hər zaman əlahiddə rol oynamış kilsə hazırkı Ermənistanda ən böyük və ciddi müxalifətdir. Bu qarşıdurmada ən kritik məqam isə ondan ibarətdir ki, erməni kilsəsi Rusiyanın hakim dairələri ilə sıx bağlıdır. Kilsə Moskva ilə İrəvan arasındakı "mərkəz-forpost" münasibətlərinin əsas aktorlarından biridir.

Paşinyan üçün kilsənin təzyiqlərini neytrallaşdırılması ən vacib hədəfidir. Son bir il ərzində kilsə nəinki hökumətin siyasətinə narazılığını bildirir, hətta açıq siyasi mübarizəyə belə müdaxilə edir. Erməni keşiş Baqrat Srbazanın faktiki olaraq müxalifət hərəkatının başına keçməsi erməni kilsəsinin icazəsi olmadan mümkün deyildi. Onun hətta parlamentdə təmsil olunmuş revanşist müxalifət liderləri - Robert Köçəryanla Serj Sarqsyan tərəfindən baş nazir vəzifəsinə namizəd göstərilməsi Eçmiədzinin siyasi proseslərə qoşulması və sabiq prezidentləri açıq müdafiə etməsi anlamına gəlir. Bu baxımdan, kilsə təhlükəsinin ən azı seçki kampaniyası müddətində neytrallaşdırılması hökumətin qarşısında duran əsas vəzifələrdən biridir.



## PAŞİNYAN ERMƏNİ XALQININ IV FİLİPİ OLA BİLƏCƏK?

Paşinyanın kilsə ilə bağlı planı kifayət qədər vaxt, prinsipiallıq və cəsarət tələb edir. Bu, həm də erməni tarixinin tamamilə alt-üst edilməsi deməkdir. Tarixdə dünyəvi hakimiyyətin kilsənin fəaliyyətini məhdudlaşdırmasına dair faktlar az deyil. Məsələn, Fransada IV Filip Gözəl Vatikana müdaxilə etməyə və istədiyi şəxsi Roma Papası seçməyə nail olmuşdu. Paşinyanın Ermənistan tarixində IV Filip qədər inadkar ola bilib-bilməyəcəyini yaxın bir il göstərəcək.

Kilsə islahatı uzun illərə başa gələcək bir avantüra da ola bilər. Bu, Paşinyanın xaricdən, əsasən də Rusiyadan gələn təzyiq dalğalarını neytrallaşdırmağa müvəffəq olması deməkdir.

Belə görünür ki, Paşinyan kilsə həyatının ən həssas nüanslarını belə diqqətdən qaçırmır. Məsələn, o, gələcəkdə seçiləcək yeni katolikosun mütləq evli olmasının tərəfdarıdır. Bu da onunla bağlıdır ki, hökumət başçısı hazırkı katolikosun gizli övladının olduğunu iddia edir. Erməni mediasında "keşiş qızı"nın fotoları tirajlanır və II Qareginin özü bu fakta münasibət bildirmir. Görünür, deməyə əsaslı arqument də yoxdur...

Katolikosun evliliyinin mümkünlüyü kilsə nizamnaməsini alt-üst edə biləcək addımdır. Ermənistan liderinin belə bir həssas məqamdan yapışması onun ən azı iki məqsəd güddüyünü göstərir: birincisi, erməni cəmiyyəti üzərində hökmü olan dini lideri nüfuzdan salmaq, ikincisi isə bu kimi həssas və mübahisəli polemika mövzusu ilə dindar elektoratın başını qarışdırıb seçkiyə müdaxiləsini minimuma endirmək.

## GEOSİYASİ KİLSƏ

Kilsənin qol-qanadının sındırılması tək daxili siyasət nöqteyi-nəzərdən vacib deyil. Bu, həm də Paşinyana xarici siyasətdə kart-blanş verə biləcək fürsət ola bilər. Bu gün Eçmiədzin Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılmasından tutmuş Zəngəzur dəhlizinin açılması və rəsmi İrəvanın xarici siyasət kursuna korrektələr etməsinədək kompleks problemlərə də müdaxilə etməyə çalışır. Keşişlər hökumətin rəsmi addımlarına zidd olaraq Azərbaycanla sülh prosesinə qarışmaqdan da çəkinmirlər. Sözügedən mövzularda mütəmadi bəyanatlar yayır, revanşizm meyillərinə dəstək verirlər. Paşinyan da yaxşı anlayır ki, daxildə "beşinci kolon"un mövcudluğu, özü də kilsədə "yuva" qurması, hakimiyyətin kursunu həyata keçirməsinə açıq təhdiddir.

### ERMƏNİ SEPARATİZMİNİN DAYAĞI

Qarabağda separatizmin ilk anlarından hərbi-kriminal xuntanın məhvinədək kilsə emissarları siyasi hadisələrin mərkəzində olublar. Azərbaycan torpaqlarının işğalı illərində hərbi əməliyyatlarda əlisilahlı erməni keşişlərinin iştirakına dair onlarla video və foto görüntülər var. Bu fakt onu göstərir ki, erməni kilsəsi tək siyasiləşmiş dini institut deyil, həm də hərbiləşmiş instansiyadır.

Erməni kilsəsi müasir Ermənistanda Paşinyana qədər aktual olmuş kriminal-oliqarx siyasi idarəçilik formasının əsas elementlərindən biri kimi çıxış edib. Köçəryan Sarqsyan dövründə Eçmiədzinlə aralarında olan qeyri-rəsmi razılaşmaya əsasən, ölkə nüfuz dairələrinə bölünüb və tərəflər bu bölgünün tələblərinə riayət ediblər. Kilsəyə və keşişlərə məxsus maliyyə gəlirlərinə heç bir maneə yaradılmayıb, əvəzində Eçmiədzin hakimiyyətə elektoral dəstəyin təmin edilməsini həyata keçirib. Kilsə Azərbaycanın işğal edilmiş ərazilərində fəaliyyət göstərən dini qurumları da nəzarətdə saxlayıb və bu yolla Xankəndidəki cinayətkar rejimə kömək edib.

# DÖVLƏTLƏR SİLAHLANMA YARIŞINDA



Bu gün dünya müdafiəyə 2,5 trilyon avro xərcləyir ki, bu da İspaniyanın ÜDM-indən iki dəfə çoxdur. Hazırda dünyada 59 açıq münaqişə var ki, bu da İkinci Dünya müharibəsindən bəri ən yüksək göstəricidir.



AZƏR NURİYEV

Dünya mediası, müxtəlif siyasi və ictimai fəallar həyəcan təbili çalır - sürətlə silahlanma dövlətlərin prioritet siyasətinə çevrilir. Əksəriyyətin fikrincə, dünyada yeni toqquşmalar riski artır. Bu, ABŞ və Çin arasında, yaxud Avropa və Rusiya arasında açıq müharibə, eləcə də daha kiçik münaqişələr seriyası ola bilər.

### ABŞ YENƏ LİDERDİR

Yeni qlobal hesabata əsasən, 2025-ci ildə ən yüksək hərbi xərclərə malik ölkələrin siyahısına 962 milyard dollarlıq büdcə ilə ABŞ başçılıq edir. Bu rəqəm, ikinci yerdə qərarlaşan Çinin hərbi büdcəsini (246 milyard dollar) təxminən dörd dəfə üstələyir. Bu iki ölkə birlikdə qlobal hərbi xərclərin böyük bir hissəsini çəkirlər. Ümumilikdə ilk 15 ölkənin hərbi büdcəsi iki trilyon dolları ötür ki, bu da dünyadakı ümumi müdafiə xərclərinin təxminən 75 faizinə bərabərdir. ABŞ və Çindən sonra Rusiya, Almaniya və Böyük Britaniya da ilk beşlikdə yer alırlar. İlk onluğu Hindistan, Səudiyyə Ərəbistanı, Yaponiya, Ukrayna və Fransa tamamlayır. Polşa və Avstraliya isə siyahının son sıralarındadır. Rusiya-Ukrayna müharibəsinin təsiri ilə Avropa ölkələri müdafiə xərclərini kəskin şəkildə artırıblar. Almaniya xüsusi modernləşmə fondu ilə birlikdə hərbi büdcəsini 109 milyard dollara çatdıraraq Avropada liderliyə yüksəlib. Böyük Britaniya 81 milyard dollar, Polşa isə 35 milyard dollar xərcləməklə NATO daxilində ÜDM-nin 4 faizini müdafiəyə ayıran ilk ölkələr olub. Səudiyyə Ərəbistanı (78 milyard dollar) və İsrail (37 milyard dollar) də artan regional gərginliklər fonunda hava hücumundan müdafiə və dəqiq zərbə qabiliyyətlərini artırmaq üçün büdcələrini genişləndiriblər. Çin hərbi büdcəsini 7,2% artıraraq 246 milyard dollara çatdırıb. Yaponiya (55 milyard dollar) və Avstraliya (34 milyard dollar) isə uzaq mənzilli raketlər və sualtı qayıqlar sahəsinə böyük investisiyalar yönəldiblər. Hindistan 79 milyard dollarlıq müdafiə büdcəsi ilə beşinci yerdə qərarlaşıb. Ölkə bu vəsaitin 33 faizini yerli istehsala yönəltməyi planlaşdırır.

## "TƏHLÜKƏSİZLİK DİLEMMASI" YENİDƏN GÜNDƏMDƏ

Beləliklə, "təhlükəsizlik dilemması" yenidən gündəmə gəlib. Bu fikir 1950-ci ildə amerikalı mütəfəkkir Con Herz tərəfindən irəli sürülmüş beynəlxalq münasibətlərin realist məktəbinin konsepsiyasıdır. Hər hansı bir ölkə müdafiə potensialını artırmağa qərar verir və bunun üçün daha çox silah istehsal etməyə başlayır. Hərbi büdcəsini artırır və ordusuna daha çox əsgər cəlb edir. Bu, onun qonşularını və strateji rəqiblərini təhdid hiss etməyə məcbur edir, çünki onlar ölkənin yalnız müdafiə olunmaq istədiyinə, hücuma hazırlaşmadığına əmin ola bilməzlər. Onlar özləri də yenidən silahlanmağa başlayırlar. Gərginliyin artmasına, toqquşmalara və nəticədə müharibəyə gətirib çıxaran bir spiral yaranır. Bu vəziyyətdən heç bir dövlət qalib çıxmır. "Tarixi icmal və son təcrübəmiz göstərir ki, yeni toqquşmalar riski artır. Bəlkə də Üçüncü Dünya müharibəsini və ya ABŞ ilə Çin arasında, Avropa və Rusiya arasında açıq müharibəni deyil, daha kiçik münaqişələr seriyasını gözləmək lazımdır", - deyə Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SIPRI) direktoru Den Smit "El Periódico"ya müsahibəsində deyib.

### KRIMIN İŞĞALI İLƏ BAŞLAYAN PROSES

Müşahidəçilərin fikrincə, sürətli silahlanma dövrü 2014-cü ildə - Krımın və Şərqi Donbasın bir hissəsinin Rusiya tərəfindən ilhaq olunmasından sonra sürətlənməyə başlayıb. Bu onillikdə hərbi xərclər artıb. Eyni zamanda, Rusiya-ABŞ silahların yayılmasına nəzarət müqavilələri böhran mərhələsinə daxil olub. Silahlanmaya nəzarət üzrə beynəlxalq sazişlər onları imzalayan ölkələr tərəfindən nəzərə alınmır. D.Smit əlavə edib ki, dünya son onillikdə silahlanma istiqamətində uzun bir yol keçib. Əlavə edib ki, Birləşmiş Ştatların təhlükəsizlik zəmanətçisi kimi etibarlılığına dair şübhələr də Rusiya neoimperializmi qədər və ya daha güclü təzyiq göstərir.



Den Smit

## AYRI-AYRI ÖLKƏLƏRİN STRATEGİYALARI

Hətta Yaponiya da İkinci Dünya müharibəsindəki məğlubiyyətdən sonra yürütdüyü sülh siyasətindən imtina edib. Tokio 2027-ci ilə qədər hərbi xərclərini illik ÜDM-nin 2,3%-nə qədər artıracağını elan edib. Yaponiya hökuməti bunu bütün dünyanın, xüsusilə də Çinin səbəb olduğu "tarixi dönüş nöqtəsini" yaşamalı olması ilə əsaslandırır. Finlandiya 1939-1940-cı illərdə SSRİ ilə qış müharibəsindən sonra qəbul etdiyi ənənəvi neytral mövqedən imtina edib və mümkün Rusiya təcavüzünə qarşı çəkindirici amil kimi NATO-ya qoşulub. Almaniya nasist keçmişi ilə bağlı tarixi tabulardan imtina edib və indi yüz milyardlarla avro daimi investisiyalar sayəsində Avropada ən güclü ordu yaratmağı vəd edir. Rusiya artıq dövlət büdcəsinin 40%-nin ayrıldığı hərbi istehsalı artırır. NATO ölkələri 2030-cu ilə qədər ÜDM-nin 5%-ni müdafiə və təhlükəsizliyə xərcləməyi öhdələrinə götürüblər. Böyük Britaniya artıq yenidən silahlanmanı ödəmək üçün inkişaf vəsaitlərini azaltmağa qərar verib.

### DÜNYADA 59 MÜNAQİŞƏ OCAĞI VAR

Sidneydə (Avstraliya) yerləşən İqtisadiyyat və Sülh İnstitutu (IEP) bildirir ki, bu gün dünya müdafiəyə 2,5 trilyon avro xərcləyir ki, bu da İspaniyanın ÜDM-indən iki dəfə çoxdur. Hazırda dünyada 59 açıq münaqişə var ki, bu da İkinci Dünya müharibəsindən bəri ən yüksək göstəricidir. Bu cür münaqişələrin heç biri sülh sazişi ilə başa çatmır. Əvvəllər bu göstərici 25% idi, indi isə 4%-dir. Qalan münaqişələr dondurulmuş və yenidən alovlanmağa hazır vəziyyətdə qalır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# VERGİ GÜZƏŞTLƏRİNİN MÜDDƏTİ UZADILACAQ?

Bu ilin sonunda əməkhaqlarına tətbiq edilən vergi güzəştlərinin müddəti uzadılmasa, gəlir vergisinin hesablanması dövlət sektorunda tətbiq olunan qaydalarla aparılacaq. Hazırda özəl sektorda işçilərin əməkhaqqı üzrə 8 000 manata qədər olan hissə gəlir vergisindən tam azaddır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



2026-cı ilin yanvar ayından etibarən Azərbaycanda gəlir vergisi üzrə tətbiq edilən güzəştlərin müddəti başa çatır. Bu, 2019-cu ildən qüvvədə olan yeddi illik güzəşt dövrünün sonu deməkdir. Hazırda əməkhaqqı 8000 manata qədər olan şəxslər gəlir vergisindən azaddır, yalnız 8000 manatdan yuxarı hissədən 14% vergi tutulur. Əgər güzəşt müddəti uzadılmasa, 2026-cı ildən etibarən maaşın 2500 manatadək hissəsindən 14%, 2500 manatdan yuxarı hissəsindən isə 25% gəlir vergisi tutulması nəzərdə tutulur.

Bəs növbəti ildə bizi nə gözləyir? 2026-cı il vergi siyasətində hansı istiqamətlər prioritet olacaq? Mövcud güzəştlər uzadılacaq, yoxsa sahibkarlar və işçilər yeni vergi yükü ilə üz-üzə qalacaqlar?

### KƏMİYYƏT YANAŞMASINDAN KEYFİYYƏT YANAŞMASINA

Millət vəkili Vüqar Bayramov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, payız sessiyasında vergi güzəştlərinin müddətinin uzadılması ilə bağlı məsələyə dair hökumət tərəfindən təqdim olunacaq layihə barədə daha ətraflı məlumat əldə edəcəyik: "Ümumilikdə, təklifimiz ondan ibarətdir ki, vergi güzəştlərində kəmiyyət yanaşmasından keyfiyyət yanaşmasına keçid təmin edilsin. Xüsusilə inkişaf etmiş ölkələrdə olduğu kimi, gəlir vergisi üzrə güzəştlərin istehlak göstəricilərinə əsaslanaraq tətbiq olunması məqsədəuyğundur. Yəni vətəndaş nə qədər çox rəsmi istehlak həyata keçirirsə və bu xərcləri plastik kart vasitəsilə rəsmiləşdirirsə, bir o qədər çox güzəşt əldə etməlidir".

## "GÜZƏŞTLƏRİN SAXLANILMASININ TƏRƏFDARIYIQ"

Millət vəkili vurğulayır ki, hazırda mövcud olan məlumat bazaları bu modelin tətbiqinə real imkan yaradır: "Bu səbəbdən hesab edirik ki, vergi güzəştləri yalnız regional və ya kəmiyyət əsaslı deyil, fərdi istehlak davranışı və şəffaf iqtisadi aktivlik əsasında tətbiq edilməlidir. Bu, vergi siyasətində daha ədalətli və səmərəli nəticələrə gətirib çıxara bilər. Xüsusilə də nəzərə alsaq ki, istehlak real sektorun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Məsələn, ABŞ-da inkişafı göstərən əsas indikatorlardan biri istehlak səviyyəsidir. Çünki istehlak real sektor üçün əsas mənbədir. Bu səbəbdən gəlir vergisi daxil olmaqla, keyfiyyət meyarlarının tətbiqi həm də istehlakın stimullaşdırılmasına gətirib çıxara bilər. İstehlakın təşviqi isə real sektorun inkişafı baxımından vacibdir. Amma bütövlükdə hansı yanaşmaya üstünlük veriləcəyi bu ilin payız sessiyasında məlum olacaq".

### "GÜZƏŞT KOMPENSASİYA XARAKTERİ DAŞIYIRDI"

İqtisadçı-ekspert Radil Fətullayev deyir ki, yeddi il müddətində qüvvədə olan bu güzəşt qeyri-neft sektoruna ciddi dəstək verdi: "Güzəşt sosial sığorta ödənişlərinə müəyyən təsir göstərsə də, müəssisələrin yükünü azaltmaqla yanaşı, işçilərin əlində qalan məbləğin artmasına səbəb oldu. Sosial sığorta haqlarında artım müşahidə olunsa da, ümumi mənada bu dəyişiklik kompensasiya xarakteri daşıyırdı".

Mütəxəssis güzəşt müddətinin yenidən uzadılmasını məqsədəuyğun hesab edir: "Vergi güzəştinin daha yeddi və ya 10 il müddətinə uzadılması həm özəl sektorun güclənməsi, həm də qeyri-neft sahəsində rəqabətqabiliyyətli mühitin formalaşması baxımından mühüm töhfə verə bilər".

## "İŞÇİNİN ƏLİNƏ ÇATAN MƏBLƏĞ AZALACAQ"

R.Fətullayev vurğulayır ki, əgər güzəştlər yenidən tətbiq olunarsa, hazırda qüvvədə olan model əsasında davam edəcək. Əks halda, gəlir vergisinin əvvəlki qaydada hesablanması işçinin əlinə çatan məbləğin azalmasına səbəb olacaq: "Hazırda qeyri-neft, qeyri-dövlət sektorunda yalnız sosial sığorta və icbari tibbi sığorta ödənişləri tətbiq olunur. Çünki 8 min manatdan çox əməkhaqqı alan işçilərin və bu səviyyədə maaş verən müəssisələrin sayı azdır. Bu baxımdan, güzəştin davam etməsi xüsusilə əhəmiyyətlidir. Dövlət büdcəsinə daxilolmaların plan üzrə yerinə yetirilməsi şəraitində bu kimi güzəştlər həm işçinin sosial təminatı, həm də iş bazarının stabilliyi baxımından önəmlidir".



Radil Fətullayev



Mahmud Abasquliyev

### TUTULMALAR NECƏ HESABLANACAQ?

Vergi üzrə ekspert Mahmud Abasquliyev deyir ki, əgər güzəştin müddəti uzadılmasa, gəlir vergisinin hesablanması dövlət sektorunda tətbiq olunan qaydalarla aparılacaq: "Hazırda özəl sektorda işçilərin əməkhaqqı üzrə 8 000 manata qədər olan hissə gəlir vergisindən tam azaddır. Yalnız sosial sığorta (200 manatın 3%-i, yuxarısının 10%-i), icbari tibbi sığorta (2%) və işsizlik sığortası (0.5%) tutulur. Müəssisə tərəfindən isə eyni ödənişlər müvafiq nisbətlərdə həyata keçirilir. Dövlət sektorunda isə vəziyyət fərqlidir: 200 manatlıq güzəşt çıxıldıqdan sonra qalan məbləğdən 14% gəlir vergisi tutulur. Bundan əlavə, əməkhaqqının 3%-i sosial sığorta, 2%-i icbari tibbi sığorta və 0.5%-i işsizlik sığortası kimi tutulmalar da işçinin maaşından çıxılır. Əgər mövcud güzəştin müddəti başa çatsa və uzadılmasa, 2026-cı ildən etibarən özəl sektor üçün də bu qaydalar keçərli olacaq. Gəlir vergisi 200 manatlıq azadolmadan sonra 14% olaraq hesablanacaq. Bu gün 1000 manat maaş alan bir işçi, gəlir vergisi əvvəlki qaydada bərpa olunarsa, artıq həmin məbləği tam şəkildə ala bilməyəcək. Bu səbəbdən də işəgötürənlərin əməkhaqlarını müvafiq şəkildə artırması vacib olacaq ki, işçi əvvəlki səviyyədə məvacibini əldə edə bilsin. Əks halda, əmək bazarında narazılıqlar və təklif-tələb balansında pozuntular yarana bilər".

# MTK-LARLA PROVAYDERLƏR ARASINDA QARŞIDURMA

**Tikinti şirkətləri binaları tikərkən qənaət etmək məqsədilə daha aşağı keyfiyyətli kabellər quraşdırırlar. Bu vəziyyət sakinlərin sürətli internetə çıxışına və provayder seçiminə məhdudiyyətlər yaradır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Bəzi tikinti şirkətləri provayderlər üçün texniki məhdudiyyət yaradır". Bu, Azərbaycanın telekommunikasiya və poçt sahələrində tənzimləyici qurumu olan İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) internet telekommunikasiya xidməti göstərən operator və provayderlərlə növbəti görüş zamanı bildirilib. İKTA nümayəndələri bildiriblər ki, yeni tikilən binalarda, xüsusilə ETTH tətbiq edilən layihələrdə bəzi tikinti şirkətləri blok daxilində mənzillərə yalnız dörd lifli "Ethernet" kabelləri çəkirlər. Bu isə provayderlər üçün texniki məhdudiyyət yaradır və 100 Mbit/s üzərində sürətin təmin olunmasına imkan vermir. Halbuki 300, 500 və ya 1000 Mbit/s kimi yüksək sürətlər üçün ən azı səkkiz lifli "Ethernet" kabellərin istifadəsi tələb olunur. Qeyd edək ki, bu mövzuda artıq bir neçə dəfə görüş keçirilib. Lakin hələ də məsələ öz həllini tapmayıb. Tikinti şirkətlərinin tətbiq etdiyi məhdudiyyətə səbəb nədir?

### "MTK-LAR ÖZ PROVAYDERLƏRİNİ YARADIRLAR"

Əmlak məsələləri üzrə ekspert Firdovsi Xəlilovun sözlərinə görə, burada iki nəzərə alınmalı məqam var: "Hansı ki, bəzi binalar çoxdan təhvil verilib. Onlar inşa olunan dövrdə fiber optik kabellər yox idi. Provayderlərin də sayı həmin dövrdə çox az idi. Son dövrlərdə isə onların sayı xeyli artıb. Bu isə bazarda ciddi rəqabətə gətirib çıxarır. Rəqabət o qədər güclüdür ki, binalara, komendantlığa pulsuz internet təklif edirlər. O zaman seçim başlayır. Bəzi hallarda MTK-lar həm də provayder yaradırlar. Yəni binalarında özlərinə aid, yaxud yaxın olan şirkətlərə icazə verirlər. Tikinti şirkətlərinin çox az hissəsi provayderlərə azadlıq verir".

F.Xəlilovun fikrincə, bu vəziyyətə səbəb qanundakı boşluqlardır: "MTK-lar haqqında qanuna görə, tikinti bitdikdən sonra onların fəaliyyəti dayanmalıdır. Sakinlər özləri xidmət göstərən şirkət yaratmalıdırlar. Bu halda provayderlərini də özləri seçirlər. Amma əksər hallarda MTK-lar tikintidən sonra da fəaliyyətlərini davam etdirirlər. Onların da çox az hissəsi tenderlə ən güclü provayderi seçir. Əksəriyyəti maraqları olan şirkətlərlə işləyirlər".

### "MAKSİMUM QƏNAƏT ETMƏK İSTƏYİRLƏR"

İKT İnformasiya Mərkəzinin direktoru Fərid Kazımovun sözlərinə görə, tikinti şirkətləri bina tikərkən maksimum qənaət etmək istəyirlər. O səbəbdən də daha aşağı keyfiyyətli kabellər quraşdırırlar: "Onların məqsədi yüksək keyfiyyətli internet vermək deyil. Çünki bilirlər ki, onlar hansı şəbəkəni istəsə, həmin provayder fəaliyyət göstərəcək. Tikinti şirkətləri monopolist yanaşma aparırlar. İstifadəçi şikayət etsə belə, heç nə edə bilməyəcək".

F.Kazımovun fikrincə, MTK-ların aldığı avadanlıqlar olduqca məhduddur. O səbəbdən də onlarla güclü internet şəbəkəsi əldə etmək mümkün deyil: "Məsələn, Böyük Britaniyada bir neçə il öncə evlərə çəkilən internetdə maksimal hədd 500 meqabit idi. Amma hazırda 1600-dür. Bizdə isə provayderlər texniki cəhətdən inkişaf etsə də, binada həmin interneti qəbul edəcək avadanlıq yoxdursa, sürətli internet vermək mümkünsüz olur. Sakinlərin isə seçimi yoxdur. MTK-ların yaratdığı provayder xidmətləri də çox zəif olur. Hansısa fəsad olduqda, təmir edəcək mütəxəssisləri yoxdur. İri provayderlər isə daha yüksək səviyyədə xidmət təqdim edirlər".

**300, 500 və ya 1000 Mbit/s kimi yüksək sürətlər üçün ən azı səkkiz lifli "Ethernet" kabellərin istifadəsi tələb olunur**



**"MTK-lar qaydalara əməl etməyə məcbur olacaqlar"**

Müsahibimiz bildirdi ki, əksər dünya ölkələrində bu xidmətlər qurumlar tərəfindən həyata keçirilir: "Ölkəmizdə bu məsələlər tam olaraq tənzimlənmir. Əslində aidiyyəti orqanlar tərəfindən xüsusi qaydalar təsdiqlənməlidir. Çünki tələblər dəyişir. Tələb olmalıdır ki, müasir kabellər çəkilsin. Böyük Britaniyada heç bir tikinti şirkəti özü kabeli çəkmir. Xüsusi şəbəkəyə, internetə aid qurumlar var. Həmin qurum internet kabeli çəkilməsini həyata keçirir. Provayder də gəlib həmin şəbəkəyə öz avadanlığını quraşdırır. Yəni texniki olaraq heç bir provayder gəlib özbaşınalıq edə bilmir. Bu səbəbdən mövcud durum tənzimlənməli, reqlamentləşməlidir. Bu zaman MTK-lar məcbur olub qaydalara riayət edəcək".

### "KOMENDANTLAR PUL İSTƏYİRLƏR"

İnşaat və əmlak məsələləri üzrə ekspert Elnur Azadovun fikrincə, provayderlərin çox olması yaxşı haldır. Amma onların çoxluğu bəzi özbaşınalıqlara da yol açır: "Provayderlərin köhnə binalara daxil olması, orada müəyyən xətlər çəkməsi şəffaf şəkildə aparılmır. Binalarda maksimum iki ya üç provayder olur, onlar da böyük və tanınmış şirkətlərdir. Yenitikili binalarda isə provayderlər sərbəst şəkildə xidmətlərini təqdim edə bilmirlər. Çünki komendantlar binaya hansısa provayder daxil olmaq istədikdə onlardan müəyyən pul tələb edirlər".

E.Azadov da düşünür ki, bu hal qanunvericilik və tikinti normalarında əksini tapmadıqca, həll edilməyəcək: "Bu məsələ tikinti və şəhərsalmaya aid qanunvericilikdə, inşaat normativlərində öz əksini tapmalıdır".



Fərid Kazımov
Firdovsi Xəlilov
Elnur Azadov

ABŞ-DƏ PROQRAM MÜHƏNDİSİ KİMİ ÇALIŞAN "VEKTOR" TƏHSİL TEXNOLOGİYALARI PLATFORMASININ MÜƏLLİFİNİN UĞUR HEKAYƏSİ




# "GOOGLE"DA İŞLƏDİ, "VEKTOR"U YARATDI

**Altun Şükürlü: "İstedadını kəşf edən və öz üzərində çalışan insan mütləq uğur qazanır. Bu, yalnız riyaziyyat üçün deyil, həyatın bütün sahələrində keçərlidir. Hər insanın mütləq şəkildə uğurlu ola biləcəyi bir sahə var".**

"İstedad başlanğıcdır, amma inkişaf və nəticə yalnız zəhmətlə gəlir", - deyir. Düşünür ki, istedadını kəşf edən və öz üzərində çalışan insan mütləq uğur qazanır. Bu yalnız riyaziyyat üçün deyil, həyatın bütün sahələrində keçərlidir. Biri riyaziyyatda güclüdürsə, digəri ünsiyyət bacarığı ilə istənilən problemi həll edə bilər, bir başqası isə biznes və ya ədəbiyyat sahəsində fərqlənir. Hesab edir ki, əsas olan insanın özünü tanıması, bacarıqlarını kəşf etməsi və onların üzərində çalışmasıdır.

Müsahibimiz ABŞ-də proqram mühəndisi kimi çalışan "Vektor" təhsil texnologiyaları platformasının müəllifi Altun Şükürlüdür.

Bakıda anadan olub və orta təhsilini paytaxt məktəblərindən birində alıb. Yeddinci sinifdən etibarən təhsilinə liseydə davam edib. Öz riyaziyyat bacarığını səkkizinci sinifdə kəşf edərək, müxtəlif olimpiadalarda iştirak etməyə başlayıb və bu sahədə bir çox uğura imza atıb. O, Beynəlxalq Riyaziyyat Olimpiadasında üç gümüş medal, Milli Riyaziyyat Olimpiadasında üç qızıl medal, Balkan Riyaziyyat Olimpiadasında iki bürünc medal qazanıb. Eyni zamanda, dörd dəfə "Putnam" Riyaziyyat Müsabiqəsinin Top500 siyahısına düşərək, beynəlxalq səviyyədə öz bilik və bacarıqlarını sübut edib. 17 yaşından ali təhsil üçün ABŞ-yə yollanıb. Purdue Universitetində kompüter və riyaziyyat elmləri üzrə bakalavr, Vircinia Universitetində isə magistr təhsili alıb.

*"Google"da işləmək hər bir mühəndisin arzusudur. Universitetdə təhsil alarkən dəfələrlə "Google"a CV göndərsəm də, müsahibələrdən keçə bilmirdim. Amma əmin idim ki, özümü inkişaf etdirib, üzərimdə işləyib yenidən müraciət edəcəm və keçəcəm.*

Həmsöhbətimiz, həmçinin ABŞ-də "IXL Learning", "Google", "Block" kimi şirkətlərdə proqram təminatı mühəndisi kimi çalışıb.

## "MÜƏLLİMİM KƏŞF ETMƏSƏYDİ..."

● **Müəlliminizin sayəsində riyazi bacarıqlarınızın kəşf olunduğunu deyirsiniz. Bu aydınlanma neçə yaşınızda baş verdi?**

● Düzdür, məktəbin ilk illərindən riyaziyyat fənni mənə çox maraqlı gəlirdi. Amma getdikcə, daha asan oldu və məndə maraq yaratmamağa başladı. Az məşğul olmağıma baxmayaraq, nəticələrim sinif yoldaşlarımdan üstün idi. Lakin həmin dövrdə bu, mənə adi gəlirdi. Yeddinci sinfə qədər belə davam etdi. Yeddinci sinifdən sonra isə müəllimlərimin dəstəyi və yönləndirməsi sayəsində riyazi bacarıqlarımı kəşf etdim və bu fənnə olan meylim daha da artdı. Müəllimim mənə bu sahədə xüsusi istedadım olduğunu dedikdən sonra riyaziyyatla daha məqsədyönlü şəkildə məşğul olmağa başladım. Müəllimim bunu kəşf etməsəydi, bu sahəyə yönəlməzdim.

● **Karyeranıza ABŞ-də 23 yaşınızda "IXL Learning"də başlamısınız. İlk işiniz sonrakı inkişafınıza necə təsir göstərdi?**

● İş mühiti çox rahat və dəstəkləyici idi. İş saatlarımızı ölçən yox idi, şirkətin əsas tələbi tapşırıqları vaxtında və keyfiyyətli şəkildə yerinə yetirmək idi. Mənə konkret layihələr tapşırılırdı və fikirlərim dinlənilirdi. Hiss olunurdu ki, komanda üzvlərinin inkişafı və peşəkar böyüməsi həqiqətən önəmlidir. Kimsə səni işlə bağlı hansısa fikri icra etməyə məcbur etmirdi, bu da insanın özünü inkişaf etdirməsi üçün əlverişli şərait yaradırdı. Üstəlik, işlədiyimiz layihə də maraqlı idi. Uşaqlar üçün dərsliklərə uyğun rəqəmsal təhsil platforması hazırlayırdıq. Bu sistem uşaqlara həm ev tapşırıqlarını yerinə yetirmək, həm də dərsləri interaktiv şəkildə araşdırmaq imkanı verirdi.

## "GOOGLE"DA İŞLƏMƏK HƏR BİR MÜHƏNDİSİN ARZUSUDUR"

● **Bəs "Google"la yolunuz necə kəsişdi?**

● "Google"da işləmək hər bir mühəndisin arzusudur. Universitetdə təhsil alarkən dəfələrlə "Google"a CV göndərsəm də, müsahibələrdən keçə bilmirdim. Amma əmin idim ki, özümü inkişaf etdirib, üzərimdə işləyib yenidən müraciət edəcəm və keçəcəm. İlk iş yerimlə bağlı təəssüratlarım çox yaxşı idi və buradakı hədəfimə də çatmışdım. Daha böyük miqyasda işləmək, daha çox inkişaf edə biləcəyim bir mühit axtarırdım. Təbii ki, "Google" bu sahədə texnologiyanın zirvəsində dayanır, həm də geniş imkanlar təqdim edir. Müraciət etdim, bu dəfə müsahibələrdən də keçdim. Təklif olunan vəzifə də tam mənə uyğun gəldiyi üçün arzularımı reallaşdırdım.

● **"Google"da hansı vəzifəni icra edirdiniz?**

● "Google"da işi konkret izah etmək çətindir, çünki hər kəs nəhəng sistemin kiçik bir hissəsi üzərində çalışır. Mən reklam texnologiyaları sahəsində işləyirdim. Məsələn, siz bir tətbiq (app) yaradırsınız və istəyirsiniz ki, o daha çox istifadə olunsun. Bunun üçün reklam kampaniyası qurursunuz. Mənim əsas vəzifəm bu reklamların düzgün işləməsini təmin etmək idi. Gündə milyonlarla insana göstərilən reklamların düzgün və effektiv şəkildə istifadəçiyə çatdırılması prosesi məhz bizim komandanın üzərinə düşürdü.

*Peşəkar karyerada 20-30 yaş aralığı çox vacib mərhələ sayılır. Amma bu o demək deyil ki, kiminsə bu yaşlarda düzgün istiqamət seçməməsi onu geri salır. 40 yaşdan sonra da insan istədiyi sahəyə yönələ və uğur qazana bilər.*

## "RESURS ÇATIŞMAZLIĞI İLƏ ÇOX ÜZLƏŞİRDİM"

● **Altun bəy, hazırda "Vektor" təhsil platforması üzərində işləyirsiniz. Ümumiyyətlə, "Vektor"la təhsildə hansı dəyişiklikləri etməyi planlayırsınız?**

● Olimpiadalara hazırlaşanda resurs çatışmazlığı ilə çox üzləşirdim. Xüsusilə, kompüter elmləri sahəsində bizə dərs deyə biləcək müəllim yox idi. Çünki bu sahə ya inkişaf etməmişdi, ya da kifayət qədər kadr yox idi. Biz o vaxt "öyrənməyi öyrənməyə" məcbur idik. Bəzi təhsil prinsiplərini özümüz öyrənərək kəşf edirdik. Məsələn, uşaq nə çox asan, nə də çox çətin tapşırıqları yerinə yetirəndə inkişaf etmir. Ona "böyümə zonası"na uyğun tapşırıqlar vermək lazımdır. Bu detalları da süni intellekt vasitəsilə tapmaq, həll etmək mümkündür. "IXL Learning" ilə işlədiyim dövrdə təhsil sahəsinə marağım daha da dərinləşmişdi. Orada işlədiyimiz məhsuldan təsirləndim. Amma düşündüm ki, daha yaxşısını yaratmaq və xüsusilə ölkəmizdə olmayan belə bir platformanı hazırlamaq olar. Beləliklə, həm öyrəndiklərimi paylaşmaq, həm də təhsildə real ehtiyaca cavab vermək üçün "Vektor"un üzərində işləməyə başladım və indi də bu istiqamətdə davam edirəm.



## FƏRDİ İNKİŞAF VƏ EFFEKTİV ÖYRƏNMƏ ÜÇÜN İDEAL MÜHİT

● **"Böyümə zonası"na uyğun tapşırıqlar necə seçilir?**

● Şagird proqram vasitəsilə məhz öz səviyyəsinə uyğun dərslər və çalışmalarla məşğul olur. Məsələn, birinci sinif şagirdi 10-a qədər toplama əməlini öyrənirsə, sistem ona uyğun tapşırıqlar təqdim edir. Əvvəllər bu çalışmalar kağız-qələm üzərində edilirdi, amma bunun bəzi çatışmazlıqları var. Məsələn, bir şagird sadəcə 4-5 suala cavab verə bilir və cavablarının düzgün olub-olmadığını müəllim yoxlamayana qədər bilmir. Proqram üzərindən edilən interaktiv tapşırıqlarda isə şagird dərhal nəticəni görür. Bundan əlavə, alqoritm onun hansı mövzuda daha yaxşı, hansı mövzuda zəif olduğunu müəyyən edir və növbəti tapşırıqları ona uyğun təqdim edir. Bu tip rəqəmsal çalışmalar həm interaktivliyi artırır, həm də öyrənməni daha effektiv edir. Buna görə də belə yanaşmanın təhsildə çox böyük önəmi var. Bu platformanı yaratmaqda üç əsas problemi hədəf almışıq. Birincisi, təhsilin effektivliyinin artırılmasıdır. Təhsil sistemində əsas problemlərdən biri müəllimlərin vaxt itkisinə səbəb olan proseslərdir. Məsələn, bir müəllimin həftəlik 40 saatından 10 saatı qiymətləndirməyə sərf olunursa, bu, onun şagirdə ayıracağı vaxtın azalması deməkdir. Əgər bu 10 saatı avtomatlaşdırılmış sistemlə əvəzləyə bilsək, müəllimlər həmin zamanı daha məhsuldar istiqamətlərə yönəldə bilər. İkincisi, model və maraq yaratmaqdır. Şagirdin dərsə marağı varsa və qarşısında yaxşı müəllim modeli görürsə, bu, onun həmin sahəyə yönəlməsində böyük rol oynayır. Çox vaxt uşaqlar müəllimini sevdiyi üçün fənni də sevir və daha yaxşı nəticə göstərirlər. Rəngli, interaktiv, oyunlaşdırılmış tapşırıqlar sayəsində biz dərsi uşaqlar üçün cəlbedici edirik. Bu isə onların tədrisə marağını və davamlı öyrənmə həvəsini artırır. Ən əsası isə, fərdi öyrənmə təcrübəsidir. Məsələn, əgər sistem bir uşağın toplama üzrə nə qədər bacarıqlı olduğunu bilir və ona uyğun çətinlikdə tapşırıqlar təqdim edirsə, bu, nə uşağın sıxılmasına, nə də çətinlikdən imtina etməsinə səbəb olar. Alqoritm zəif şagirdə uyğun səviyyədə, güclü şagirdə isə onu irəli aparacaq çalışmaları təqdim edir.

● **Bu ideyanın ərsəyə gəlməsində sizin riyazi qabiliyyətinizin gec kəşf edilməsinin rolu varmı?**

● Bəli. Öz təcrübəmdə bunun çətinliyini yaşamışam. Təhsil sistemində şagirdlərin fərdi səviyyələri nəzərə alınmadıqda onların öyrənməyə olan motivasiyası ciddi şəkildə zədələnir. Məsələn, bir şagirdə səviyyəsindən qat-qat çətin çalışma təqdim olunsa, bu, onun bacarmadığı hissi yaradar və nəticədə motivasiyasını azaldar. Eyni zamanda, verilən tapşırıqlar çox asan olarsa, uşaq dərsdən sıxılar və marağını itirər. Problemin əsas səbəblərindən biri dərslərin sinifdəki ümumi səviyyəyə uyğun şəkildə aparılmasıdır. Əgər sinifdə bir neçə şagird daha yüksək səviyyədədirsə, dərsi onların səviyyəsinə uyğunlaşdırmaq digər şagirdlər üçün çətinlik yarada bilər. Bu səbəbdən, müəllimlər adətən orta səviyyəni əsas götürürlər. Lakin bu yanaşma daha hazırlıqlı şagirdlər üçün dərsləri maraqsız və təkrarlayıcı edə bilər. Bu problemi texnologiya vasitəsilə həll etmək mümkündür. Beləliklə, nə şagird sıxılar, nə də çətinlikdən dolayı motivasiyasını itirər. Bu da fərdi inkişaf və effektiv öyrənmə üçün ideal mühit yaradır.




## "İSTEDAD BİR BAŞLANĞICDIR, AMMA İNKİŞAF..."

● **Sizcə, riyazi istedad genetik olaraq ailədən gəlir, yoxsa çalışmaqla formalaşır?**

● Düşünürəm ki, əgər insan riyazi istedadın yalnız genetik olduğunu və ailədən gəldiyini düşünsə, bu, onun öz üzərində çalışma motivasiyasını azaldar. İstedadını kəşf edən və öz üzərində çalışan insan mütləq uğur qazanır. Bu, yalnız riyaziyyat üçün deyil, həyatın bütün sahələrində keçərlidir. Hər insanın mütləq şəkildə uğurlu ola biləcəyi bir sahə var. Biri riyaziyyatda güclüdürsə, digəri ünsiyyət bacarığı ilə istənilən problemi həll edə bilər, bir başqası isə biznes və ya ədəbiyyat sahəsində fərqlənir. Əsas olan insanın özünü tanıması, bacarıqlarını kəşf etməsi və onların üzərində çalışmasıdır. İstedad başlanğıcdır, inkişaf və nəticə yalnız zəhmətlə gəlir.

● **Peşəkar inkişaf üçün 20-30 yaş aralığını kritik hesab edirsiniz. Bəs insan öz istedadını bundan sonra kəşf etsə necə?**

● Ümumiyyətlə, peşəkar karyerada 20-30 yaş aralığı çox vacib mərhələ sayılır. Amma bu o demək deyil ki, kiminsə bu yaşlarda düzgün istiqamət seçməməsi onu geri salır. 40 yaşdan sonra da insan istədiyi sahəyə yönələ və uğur qazana bilər. Təəssüf ki, bizdə belə bir tabu var: insan mütləq 20 yaşında universiteti bitirməli, sonra magistr oxumalı və dərhal işləməyə başlamalıdır. Halbuki burada tanıdığım insanlar var ki, 50 yaşında hüquq və ya tibb sahəsində təhsil almağa başlayıblar. Əgər insan hansısa sahəyə maraq göstərirsə, mütləq bu istiqamətdə irəliləməlidir. İnkişaf üçün yaş məhdudiyyəti yoxdur. Hər yaşda insan istədiyi hədəfə doğru addım ata bilər. Amma cəmiyyətimizdə 60-70 yaşlı şəxsin təhsil alması qəribə qarşılanır. Halbuki bu, normal və alqışlanmalı haldır.



# SOCAR-LA "ÖZBƏKNEFTQAZ" ARASINDA MÜHÜM RAZILAŞMA




Tərəflərin imzaladığı sazişin şərtlərinə uyğun olaraq, ən azı 1000 kv. km sahədə 3D seysmik kəşfiyyat işlərinin aparılması və nəticələrə əsasən bir quyuda geoloji kəşfiyyat işlərinə başlanılması planlaşdırılır.

Özbəkistanın Energetika Nazirliyi, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Özbəkneftqaz" SC Ustyurt neft-qaz regionunun investisiya bloklarında (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) geoloji kəşfiyyat işlərinin aparılmasını və sonrakı karbohidrogen hasilatını nəzərdə tutan hasilatın pay bölgüsü sazişini (HPBS) imzalayıblar. Bu barədə "Report" Özbəkistan Energetika Nazirliyinin məlumatına istinadən xəbər verir.

## ENERJİ TƏRƏFDAŞLIĞININ İNKİŞAFINDA MÜHÜM ADDIM

"Sazişin şərtlərinə uyğun olaraq, ən azı min kv. km sahədə 3D seysmik kəşfiyyat işlərinin aparılması və nəticələrə əsasən bir quyuda geoloji kəşfiyyat işlərinə başlanılması planlaşdırılır. Sənaye əhəmiyyətli karbohidrogen yataqları aşkar ediləcəyi təqdirdə, tərəflər onların işlənməsi və sonrakı hasilatı mərhələsinə keçəcəklər", - məlumatda bildirilib.

Nazirlik qeyd edib ki, sazişin imzalanması Özbəkistan və Azərbaycan arasında enerji tərəfdaşlığının inkişafında mühüm addım olub və karbohidrogen ehtiyatlarının kəşfiyyatı və işlənməsi (mənimsənilməsi) sahəsində uzunmüddətli əməkdaşlıq üçün möhkəm təməl qoyub.

## SOCAR İLƏ TƏRƏFDAŞLIĞA VERİLƏN DƏYƏR

SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib ki, bu sazişin imzalanması Mərkəzi Asiya və Xəzər regionunda enerji sektorunun inkişafı üzrə iki ölkənin uzunmüddətli strategiyasının sübutudur: "SOCAR toplanmış təcrübə və qabaqcıl texnoloji həlləri tətbiq edərək həvəslə layihənin həyata keçirilməsinə başlayır. Biz əminik ki, bu əməkdaşlıq Özbəkistanın enerji təhlükəsizliyinin təmin edilməsinə və infrastrukturunun inkişafına əhəmiyyətli töhfə verəcək".

Özbəkistan energetika naziri Jurabek Mirzamahmudov vurğulayıb ki, SOCAR ilə tərəfdaşlıq Yeni Özbəkistanın investisiya mənbələrini şaxələndirmək və ən yaxşı beynəlxalq təcrübələri tətbiq etmək ilə bağlı strateji istəyini əks etdirir: "Ustyurt regionu yüksək potensiala malikdir və HPBS-nın imzalanması onun səmərəli inkişafı üçün yeni üfüqlər açır. Biz əminik ki, bu layihə texnoloji tərəqqi və iqtisadi artımın mühüm hərəkətverici qüvvəsi olacaq".

"Özbəkneftqaz" SC İdarə Heyətinin sədri Bahodirjon Sidikov isə bildirib ki, bu saziş müəyyən sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi və milli neft-qaz sənayesinin inkişafı yolunda mühüm mərhələdir.

## SAZİŞ MÜDDƏTİNİN İLKİN MƏRHƏLƏSİNDƏ...

SOCAR-ın məlumatına görə, saziş müddətinin ilkin mərhələsində perspektivli sahələrin təyin olunması məqsədilə geoloji-kəşfiyyat işlərinin aparılması nəzərdə tutulur. Bu müddət ərzində SOCAR operator olaraq fəaliyyət göstərəcək. Sənədə əsasən, axtarış-kəşfiyyat işlərinin və ən azı bir kəşfiyyat quyusunun qazılmasının ilkin olaraq 5 il müddətində yekunlaşdırılması planlaşdırılır.

Qeyd edək ki, "Özbəkneftqaz" və SOCAR 2024-cü il avqustun 22-də neft-qaz sahəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsinə yönəlmiş saziş imzalayıblar. 2024-cü ilin avqustunda keçirilən biznes forumda Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov SOCAR ilə birlikdə Ustyurt yaylasında geoloji kəşfiyyat işlərinin aparılacağını bildirib.



Bu ilin iyun ayında SOCAR Özbəkistanın Ustyurt regionunda geoloji kəşfiyyat işlərinin aparılması barədə "Özbəkneftqaz" SC ilə razılığa gəldiyini bildirib.




# "NAR" DAŞKƏSƏN FESTİVALINDA İŞTİRAK EDİB

Sərfəli qiymətləri və bölgələrə xüsusi diqqəti ilə seçilən "Nar" Daşkəsən şəhərinin 95 illiyi münasibətilə keçirilən festivalda iştirak edib. Daşkəsən rayon İcra Hakimiyyəti tərəfindən Xoşbulaq kəndində təşkil olunan möhtəşəm festivala "Nar" gözoxşayan stendi ilə xüsusi rəng qatıb.

Festivalda iştirak edən Daşkəsən sakinləri "Nar" stendində mobil operatorun təqdim etdiyi sərfəli xidmətlərlə tanış oldular və tədbirə özəl kampaniya ilə yeni "Nar" nömrələri əldə ediblər. Mobil cihazların, aksesuarların və digər sərfəli məhsulların satışının təşkil edildiyi "Nar" stendində qonaqlar üçün "Nar"dan xüsusi hədiyyələr də təqdim olunub.

Qeyd edək ki, "Nar"ın festivalda iştirakının əsas məqsədi Azərbaycanın bölgələrində yaşayan abunəçilərlə birbaşa ünsiyyətdə olmaq, onların təklif və istəklərini yerində öyrənməkdir.

# "KASPİ"NİN ƏMƏKDAŞI QALİB OLDU



"Kaspi"nin əməkdaşı "Fərdi jurnalist müsabiqəsi"nin qalibi olub. Aygün Cəfərova "Ən yaxşı müsahibə" nominasiyası üzrə qaliblər sırasındadır.

Bundan başqa, "Global Media Group"a daxil olan "Oxu.az"dan, "Caliber.az"dan ayrı-ayrılıqda bir, "Report"dan və Baku tv-dən isə iki nəfər müxtəlif nominasiyalar üzrə yer tutub.

Belə ki, Aləmdə Nəsib (Oxu.az) "Ən yaxşı müsahibə", Vüsal Lalayev (Baku tv) "Ən yaxşı sosial-iqtisadi reportaj", Emin Tarverdiyev (Baku tv) "Ən yaxşı tematik (idman, mədəniyyət və s. repotaj), Sayad Həsənli (Report) "Ən yaxşı müsahibə", Aysel Turan (Report) "Ən yaxşı reportaj", Timur Rzayev (Caliber.az) "Ən yaxşı sosial-iqtisadi reportaj" nominasiyaları üzrə qalib olublar.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1549
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# XƏSTƏLƏRİN DƏRMAN DƏRDİ

Azərbaycanda dərman vasitələrinin 90-95 faizi xaricdən gətirilir. Bu vəziyyət hər il çəkilən xərclərin artmasına səbəb olur. Yerli istehsal isə qənaətbəxş səviyyədə deyil. Nəticədə əczaçılıq məhsullarının xərcləri hər il artır.



SEVİNC ABBASOVA

Azərbaycanın əczaçılıq məhsullarının idxalına çəkdiyi xərclər ilbəil artır. Bu ilin yanvar-iyun aylarında ölkəmizə 259,390 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal olunub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz çoxdur. Hesabat dövründə Azərbaycan həmçinin 1,712 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları ixrac edib. Bu isə bir il əvvələ nisbətən 23,4 faiz azdır. Əczaçılıq məhsulları üzrə idxal Azərbaycanın ümumi idxalının 2,25 faizini, ixrac isə ümumi ixracın 0,01 faizini təşkil edib.

Maraqlıdır, dərmana çəkilən xərclər niyə davamlı olaraq artır? Getdikcə daha çox xəstələnirikmi, yoxsa qiymətlər bahalaşır? Ümumiyyətlə, mövcud bazarda vəziyyəti necə qiymətləndirmək olar?

### "YERLİ İSTEHSALIN GENİŞLƏNDİRİLMƏSİNƏ EHTİYAC VAR"

İqtisad elmləri doktoru, professor Rüfət Quliyevin sözlərinə görə, Azərbaycanda dərman vasitələrinin 90-95 faizi xaricdən gətirilir. Bu vəziyyət hər il çəkilən xərclərin artmasına səbəb olur: "Ona görə yerli istehsala ciddi diqqət ayrılmalıdır. Məsələn, Türkiyə dünyada tanınmış dərman istehsalçısı ölkələrindəndir. Bu ölkənin şirkətlərini Azərbaycana dəvət etmək olar ki, burada öz şəbəkələrini açsınlar. Bazar genişdir, 10 milyondan çox əhalimiz var. Eyni dərmanları gəlib burada istehsal etsinlər". R.Quliyev qeyd edir ki, dövlət artıq bu sahədə əlverişli imkanlar yaradıb. İndi isə sahibkarların təşəbbüs göstərməsi vacibdir: "Hər şeyi dövlət etməməlidir. İran şirkətləri artıq burada istehsala başlayıblar. Türkiyə şirkətləri də gəlib həm istehsal, həm də satışla məşğul ola bilərlər. Yerli istehsalın inkişafı dərman qiymətlərinə də təsir edə bilər. Əgər bu baş tutsa, bir çox dərman vasitələrinin qiymətində 40-45 faizədək azalma müşahidə oluna bilər".


Rüfət Quliyev

## XƏRCLƏRİ ARTIRAN ÜÇ ƏSAS AMİL

Tibb elmləri doktoru, professor Adil Qeybulla isə dərman bazarındakı dəyişikliklərin yalnız ölkə daxili deyil, qlobal proseslərlə bağlı olduğunu vurğulayır: "Dərmanların çeşidi artır, ayrı-ayrı ölkələrdən gələn dərmanların sayında da artım var. Bu, qiymətlərə təsir edir. Eyni zamanda, inflyasiyaya uyğun olaraq artım var. Digər tərəfdən, müəyyən qədər əhali artımı var və dərmanlara olan tələbat getdikcə artmaqdadır. Bu üç amil dərmanların qiymətinə təsir edir. Dərmanlarda qiymət artımı Avropa ölkələrində də müşahidə edilir. Biz bu barədə məlumatlıyıq. Sadəcə, orada bütün tibbi xərcləri icbari tibbi sığorta qarşıladığına görə vətəndaşlar qiymət artımını o qədər hiss etmirlər. Bizdə də bu modelə keçid vacibdir".

### "VERGİ YÜKÜ PROBLEMLƏR YARADIR"

Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının rəhbəri Azər Xudiyev hesab edir ki, dərman idxalına çəkilən xərclərin artması sahibkarların üzləşdikləri çətinliklərdən qaynaqlanır. Onun sözlərinə görə, əsas problem isə Tarif Şurasının müəyyən etdiyi qiymət siyasətidir: "Xarici istehsalçılar Azərbaycan bazarını kiçik və qeyri-cəlbedici hesab etdiklərindən məhsullarını aşağı qiymətlə təqdim etmək istəmirlər. Əgər bir dərmanın satış qiyməti bir manatdırsa və istehsalçının təklif etdiyi qiymət də bir manata bərabərdirsə, bu, sahibkar üçün sərfəli deyil. Nəticədə həmin məhsulun idxalı dayandırılır və bazarda qıtlıq yaranır. Eyni zamanda, qeydiyyatsız və qeyri-legitim dərman vasitələrinin artmasına səbəb olur. Xəstələr ehtiyac duyduğu dərmanları apteklərdə tapa bilmir. İmkanı olanlar onları xaricdən gətizdirir, olmayanlar isə vasitəçilərə müraciət edir. Bu isə qanuni ticarətin zəifləməsinə və nəzarətsiz bazarın formalaşmasına gətirib çıxarır".




A.Xudiyev onu da bildirir ki, qeydiyyat prosedurlarının çətin və uzunmüddətli olması yeni dərman məhsullarının Azərbaycana daxil olmasını əngəlləyir: "Bu həm də bazarda rəqabəti azaldır".

Assosiasiya rəhbəri dərman vasitələrinin ƏDV-dən azad edilməsini vacib sayır. O, bu yükün həm sahibkar, həm də vətəndaş üçün ciddi problem olduğunu vurğulayır: "Dərman strateji məhsuldur, bir çox ölkələrdə ƏDV-dən azaddır. Bizdə isə həm vətəndaş, həm də sahibkar bu yükü daşıyır. İcbari tibbi sığorta dərmanları ƏDV-siz alırsa, vətəndaş niyə ƏDV ödəməlidir? Bu təzad aradan qaldırılmalıdır".

## YENİ DƏRMANLARA ÇIXIŞ MƏHDUDDUR

Hazırda qeydiyyat və vergi problemləri səbəbindən bir çox əczaçılıq şirkətləri dərman idxalından çəkinərək qida əlavələrinə üstünlük verməyə başlayıb. Assosiasiya rəhbəri bu meyli təhlükəli hesab edir: "Qida əlavələri dərman deyil və xəstənin müalicəsində effektiv nəticə vermir. Sadəcə prosedur baxımından daha rahat olduğu üçün şirkətlər ora yönəlir. Bu, həm həkimləri, həm xəstələri səhv yola aparır. Bu hal birbaşa olaraq vətəndaşın sağlamlığına təsir göstərir. Çünki düzgün dərman müalicəsi əvəzinə, effektivliyi elmi əsaslarla sübut olunmamış qida əlavələrindən istifadə artır".

A.Xudiyev bildirir ki, dünya dərman sənayesi sürətlə inkişaf etsə də, Azərbaycan bu proseslərdən kənarda qalır: "Dünyada hər ay onlarla yeni dərman qeydiyyata alınır. Lakin biz bu məhsullara çıxış əldə edə bilmirik. Nə istehsalçı, nə idxalçı üçün bu bazar cəlbedici deyil. Bu vəziyyət həm səhiyyə sisteminə, həm də ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Çünki nəzarətsiz şəkildə daxil olan məhsullar həm keyfiyyət baxımından şübhəlidir, həm də vergi və rüsum ödəmədən daxil olur".

Assosiasiya rəhbəri qeyd edir ki, bu problemlərlə bağlı dövlət qurumları ilə müxtəlif görüşlər keçirilib, lakin konkret nəticə yoxdur: "Müzakirələr masa arxasında qalır. Strateji qərarlar verilmir. Məsələn, hələ də gözləyirik ki, icbari tibbi sığorta ambulator müalicə alan xəstələrin dərman vəsaiti ilə təchizatını həyata keçirəcək. Verilən qərarlar icra olunsa, vətəndaşlara çox böyük dəstək olar. Hələ ki, icra olunmur. Biz istəyirik ki, sözlərlə yox, real addımlarla dəyişiklik olsun. Sahibkar razı qalarsa, vətəndaş da razı qalacaq".


Azər Xudiyev

ORTA AYLIQ ƏMƏKHAQQININ ARTIMINDAN SONRA AZ MAAŞ OLAN SAHƏLƏRDƏ ÇALIŞANLAR DA SEVİNƏ BİLƏCƏKLƏRMİ?

# MAAŞ ARTIMI İLƏ BAĞLI MARAQLI NÜANSLAR

Bakıda orta aylıq əməkhaqqında səkkiz faizlik artım qeydə alınıb. Bu artım daha çox özəl sektoru əhatə edir. Maaş artımı və yüksək əməkhaqqı göstəricilərinə görə neft və maliyyə sektoru digər sahələrlə müqayisədə öndədir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Paytaxt Bakıda orta aylıq əməkhaqqı artıb. Belə ki, bu ilin yanvar-aprel aylarında paytaxtda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 1 385,9 manat təşkil edib. Bakı şəhər Statistika İdarəsindən bildirilib ki, paytaxtda orta aylıq əməkhaqqı 2024-cü ilin yanvar-aprel aylarına nisbətdə 8,1 faiz artıb. Qeyd edək ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 1 100,6 manat təşkil edib.

Orta aylıq əməkhaqqının artımı daha çox hansı sahələrdə hiss olunur? Az maaş olan sahələrdə də orta aylıq əməkhaqqının artımından sonra artım meylləri müşahidə edilə bilərmi?

### ÖZƏL SEKTOR ÖNDƏDİR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, orta aylıq əməkhaqqında olan artım daha çox özəl sektora aid sahələrdə müşahidə edilir: “Bu, birbaşa ölkə üzrə muzdlu işçilərin əməkhaqlarındakı artımlarla bağlıdır. Sosial paketin dərinləşməsi bütövlükdə ölkə üzrə orta aylıq əməkhaqqı məbləğinə təsir göstərir ki, bu da artımlarla müşahidə olunmaqdadır. Son illərin statistikası göstərir ki, özəl sektorda əməkhaqqı artımı daha yüksəkdir. Bu, neft və maliyyə sektorunda daha çox müşahidə edilir. Nəzərə alaq ki, neft sektorunda hər zaman maaşlar yüksək olaraq qalmaqdadır. Eyni zamanda xidmət sektorunda da əməkhaqqının artırıldığını görürük. İxtisaslı kadrların maaşlarında da son illər xeyli artımlar müşahidə olunur”.

### FƏRQLİ İLLƏRDƏ FƏRQLİ RƏQƏMLƏR

Deputatın qənaətincə, dövlət və özəl sektor arasında da əməkhaqqı artımlarında fərq nəzərə çarpır. Məsələn, 2024-cü ildə dövlət qulluqçularının əməkhaqqı iki faiz artıb. Amma ölkə üzrə ümumi əməkhaqqı 8,1 faiz artıb: “Bu da ondan xəbər verir ki, ölkəmizdə orta aylıq əməkhaqlarının yüksəlməsində özəl sektorun xüsusi rolu mövcuddur. Təbii ki, dövlət sektorunda da əməkhaqlarının mütəmadi olaraq artdığını müşahidə edirik. Xüsusən də sosial paketlər reallaşan zaman dövlət sektorunda çalışan vətəndaşlarımızın əməkhaqqında daha çox artımlar baş verir. Fərqli illərdə fərqli rəqəmlər mövcuddur. Amma ümumilikdə artıq özəl sektorun, xüsusən də əmək müqavilələrində, həmçinin məşğulluqda idarəçiyə çevrildiyini görürük”.

### KİŞİLƏR DAHA ÇOX QAZANIR

V.Bayramovun fikrincə, kişilər və qadınlar arasında əməkhaqqı fərqi hələ də qalmaqdadır: “Bu gün qadınlar kişilərin əməkhaqqının təxminən altmış faizi həcmində məvacib alırlar. Səbəblərdən biri ağır işlərdə kişilərin fəaliyyət göstərməsidir. Bu kimi fəaliyyətlərdə ağırlıq daha çox kişilərin üzərinə düşdüyündən onların əməkhaqqı xanımlara nisbətən yüksəkdir. Məsələn, neft sektorunu qeyd edə bilərik. Orada daha çox kişilər çalışır. Bu da özü-özlüyündə əməkhaqqı fonduna təsir göstərir. Amma kişilər və qadınlar arasında əməkhaqqı fərqinin azaldılması prioritet olaraq qalmaqdadır”.




### DÖVLƏTİN MÜDAXİLƏ İMKANI MİNİMUMDUR

Millət vəkili bildirib ki, beşinci sosial paketin istiqamətlərindən biri minimum əməkhaqqının artırılması idi: “Onun artırılması həm dövlət, həm də özəl sektoru əhatə etdi. Bu da nisbətən az əməkhaqqı alan vətəndaşlar üçün bir stimuldur. Özəl sektor da minimum əməkhaqqı ilə bağlı tələblərə əməl edir. Amma dövlətin özəl sektorla bağlı müəyyənləşdirdiyi meyar sadəcə minimum əməkhaqqıdır. Yəni qanunvericilikdə əməyin minimum dəyəri müəyyən edilir. Minimum əməkhaqqından artıq hansı məbləğdə maaşın təklif olunması birbaşa özəl sektorda işəgötürən və işçi arasında bağlanan müqavilə ilə tənzimlənir”.



Vüqar Bayramov

Foto: Firudin Səlimov
Global Photostock

## “DÖVLƏT SEKTORU ÖZƏL SEKTORDAN HEÇ DƏ GERİYƏ QALMIR”



Nüsrət Xəlilov

Əmək qanunvericiliyi üzrə ekspert Nüsrət Xəlilov isə düşünür ki, artımlar təkcə özəl sektorda deyil, həmçinin dövlət sektorunda da müşahidə edilir: “Maaş artımı daha çox neft-qaz, maliyyə, mühəndislik kimi sahələrdə müşahidə edilir. Dövlət sektoru və özəl sektor arasında maaş artımı baxımından fərqlər bu şəkildədir. Bir neçə il öncə dövlət sektorunda özəl sektora nisbətən maaşlar ciddi şəkildə aşağı idi. Son bir neçə ildə ölkəmizdə bu sahədə islahatlar aparılıb. Həmin islahatların nəticəsidir ki, hazırda dövlət sektorunda da maaşlar özəl sektordan heç də geriyə qalmır”.

N.Xəlilovun sözlərinə görə, maaş artımı zamanı kişilərin üstün tutulub, qadınların daha az əməkhaqqı alması qadağandır: “Sırf cinsə görə maaş artımı ola bilməz. Amma işçilər arasında peşəkarlıq xüsusiyyətləri fərqlidirsə, bu zaman maaşlar fərqli ola bilir”.

### “İŞ SAATI ÇOX, MAAŞ İSƏ AZDIR”

Ekspertin fikrincə, az əməkhaqqı olan sahələrdə də orta aylıq əməkhaqqının artımından sonra artım müşahidə edilə bilər: “Nəzərə alaq ki, böyük supermarketlər və digər bu kimi iş yerlərində maaş artımları aşağıdır. Kiçik sahibkarlıq subyektlərində çalışanların iş saatları müəyyən qədər çox, əməkhaqları isə azdır. Ümid edək ki, gələcəkdə maaş artımları nə vaxtsa bu sahələrə də ciddi şəkildə təsir göstərəcək”.

# MİNALARDAN NƏ VAXT QURTULACAĞIQ?

Minalar hələ də işğaldan azad olunan ərazilərdə insanların həyat və sağlamlığı üçün ciddi təhlükə mənbəyi olaraq qalır. Minaların təmizlənməsi üçün hələ ən azı 20 il də lazım olacaq.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Minalardan və partlamamış hərbi sursatlardan zərər çəkən ölkələr arasında Azərbaycan ilk sıralardadır. Minalar hələ də işğaldan azad olunan torpaqlarımızın müəyyən ərazilərində insanların həyat və sağlamlığı üçün ciddi təhlükə mənbəyi olaraq qalır. Hazırda minatəmizləmə əməliyyatları Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biridir və bu fəaliyyət yalnız təhlükəsizlik baxımından deyil, həm də sosial-iqtisadi inkişaf və əhalinin doğma yurdlarına qayıdışı üçün ilkin şərtdir.

Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı may ayında açıqladığı hesabata görə, müharibənin başa çatdığı beş il ərzində - 2020-ci ilin noyabr ayından 2025-ci il iyunun 1-dək humanitar minatəmizləmə fəaliyyətinə cəlb edilən qurumlar tərəfindən ümumilikdə 204 min 763 hektar ərazi minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənib.

Ermənistanın mina terroru çoxsaylı insan itkilərinə, ağır xəsarətlərə və minlərlə insanın əlilliyinə səbəb olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı tikinti və bərpa işlərinə, insanların dədə-baba torpaqlarına geri qayıdışına ciddi maneə yaradır.

Minaların təmizlənməsi üçün müəyyən edilən 25 il vaxtdan isə cəmi beş il keçib. Ekspertlərin fikrincə, minatəmizləmə prosesi bu templə davam edərsə, bundan sonra hələ 20 ilə də ehtiyac olacaq.

### ƏHALİNİN AZAD MÜHİTDƏ YAŞAMASI ÜÇÜN...

ANAMA-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Səbinə V. Sərkərova sorğumuzu cavab olaraq bildirdi ki, minalar və partlamamış hərbi sursatların təhlükəsi xüsusi aktuallıq kəsb edən problemlərdən biridir: "İlkin qiymətləndirmələrə görə, Ermənistan işğal dövründə torpaqlarımıza 1,5 milyon mina basdırıb. Ərazilərdə icra edilən qeyri-texniki tədqiqat və texniki tədqiqat əməliyyatları nəticəsində təkcə keçmiş təmas xətti boyu ərazilərin deyil, eləcə də mülki təyinatlı ərazilərin də mina və müharibənin digər partlayıcı qalıqları ilə ciddi şəkildə çirkləndiyi müəyyən olunub". Agentlik rəsmisinin məlumatına görə, hazırda işğaldan azad edilmiş ərazilərdə humanitar minatəmizləmə əməliyyatları Böyük Qayıdış proqramı çərçivəsində əhalinin köçü və bərpa-quruculuq işləri ilə əlaqəli şəkildə həyata keçirilir. Əhalinin mina və partlamamış hərbi sursatların təsirindən azad mühitdə yaşaması üçün şərait yaradılır. Agentlik rəsmisi ərazidəki əsas çətinliklər kimi Ermənistan tərəfindən təqdim olunan mina formulyarlarının qeyri-dəqiqliyini, ərazilərin nizamsız şəkildə minalanmasını, minalanmış ərazilərin metallarla çirkləndirilməsini qeyd edir.

## Araz çayından "Ohanyan səddi"nə kimi...

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri, ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanovun sözlərinə görə, 44 günlük müharibədən sonra Araz çayından "Ohanyan səddi"nə kimi olan ərazilərin atəşkəs dövründə kütləvi şəkildə minalandığı müəyyən edilib: "Elə ərazilər var ki, 4-7 və 11 km dərinlikdə minalanıb. Azərbaycan hökumətinin israrlı tələblərindən sonra Ermənistan dörd mərhələdə minalanmış ərazilərin xəritələrini bizə verdi. Birinci mərhələdə verilən Ağdam rayonu üzrə xəritədə 97 min minanın olduğu bildirilirdi. Füzuli-Zəngilan regionu üzrə verilən xəritələrdə 92 min mina yerləşdirildiyi əksini tapır. Digər ərazilər üzrə konkret adlar və rəqəmlər göstərilməmişdi". H.Səfixanovun rəhbərlik etdiyi təşkilatın tədqiqatlarından məlum olub ki, ümumiyyətlə, Kəlbəcər, Goranboy və Xocavənd rayonlarının xəritələri Azərbaycan tərəfinə təqdim olunmayıb: "Yoxlamalardan sonra məlum oldu ki, verilən xəritələr də işə yaramır. Elə formulyarlar var ki, A4 kağızdır - heç nə oxunmur. Antiterror əməliyyatından sonra məlum oldu ki, 2020-ci ildən 2023-cü ilədək olan dövrdə ikinci "cəbhə xətti" yaradıblar. Həmin ərazidə də 500 minə qədər minanın olduğu bildirilir. Azərbaycan hökuməti bunları nəzərə alaraq arsenalında olan bütün qüvvələri minaların təmizlənməsinə yönəldib. ANAMA yenidən qurulub. Maşın mexanizmləri, minaaxtaran itlər və siçanlar gətirilib. Minatəmizləyənlərin sayı hər il artırılır. Bütün bu işlər üçün xərclərin 95 faizi dövlət büdcəsi hesabına maliyyələşdirilir".

## Xəritələr və yerli əhalinin məlumatı

H.Səfixanovun sözlərinə görə, Qarabağın içərilərinə aid minalarla bağlı heç bir məlumat yoxdur: "Təcrübəyə əsasən, döyüşlər bitdikdən sonra, minalarla bağlı iki mənbədən məlumat alınır: xəritələrdən və yerli əhalidən. Bu məlumatlar əsasında minalanmış ərazilərin konturları müəyyən olunur və təmizlənmə aparılır. Bizdə isə verilən xəritələr dəqiq deyil. Məlumat toplamaq üçün yerli əhali də yoxdur. Ona görə də biz qarış-qarış qabağa gedirik".


Hafiz Səfixanov

Foto: Rüfət Mikayılov/Global Photostock

H.Səfixanov bildirir ki, prosesdə beynəlxalq dəstək olsa da, onun həcmi bizim problemin miqyasına adekvat deyil: "Minatmzilənmə çox vaxt və pul aparan işdir. Beynəlxalq birliklərdən cəmi beş faiz yardım ala bilirik". İB sədri qeyd edir ki, əhalinin işğaldan azad edilmiş ərazilərə qayıdışı ilə mina qayğıları daha da artır: "Hər ay mina qurbanlarının sayı artır. Bizim qurbanların sayı Cənubi Qafqazın digər ərazilərindəki mina qurbanlarının sayından ən azı iki dəfə çoxdur. İnsanlarımız şüurlu şəkildə təlimatlara əməl etməlidirlər". H.Səfixanovun sözlərinə görə, mina probleminin nə vaxt bitəcəyi ilə bağlı dəqiq proqnoz vermək çətindir: "Görülən işlər ona hesablanır ki, minatəmizləmə ilə bağlı vaxt qısalsın. Konkret vaxt demək isə çox çətindir. Qarabağın içərilərinə getdikcə hansı ərazilərdə nə olduğunu bilmirik".

Xatırladaq ki, 2020-ci ilin noyabrından 2025-ci il iyunun 1-dək olan müddətdə işğaldan azad edilmiş ərazilərdəki mina qurbanlarının sayı 398 nəfər təşkil edib. Onlardan 70 nəfəri həlak olub, 328 nəfəri müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

# ARTAN PUL HƏM DƏ RİSK DEMƏKDİR




**Dövriyyədə olan pul kütləsinin həcminin artması iqtisadi fəallıqla yanaşı, inflyasiya riskini də artırır. Bununla belə, vətəndaşların büdcədən faydalanmaq imkanları da genişlənir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illərdə Azərbaycanda dövriyyədə olan pul kütləsinin həcmi ilə bağlı rəqəmlər diqqət çəkir. Ötən il dövriyyədə olan kağız və metal pullar 130 milyon 896 min manat artıb. Son vaxtlar dövriyyədəki pul kütləsinin davamlı artmasını müşahidə edirik. Bu, el dilində yanaşıldıqda nə deməkdir? Dövriyyədə olan pul kütləsinin artımı vətəndaşlar və banklara nəsə vəd edirmi?

### NAĞD PULA TƏLƏBAT YARANIR



Rəşad Həsənov

İqtisadçı Rəşad Həsənovun sözlərinə görə, bazarda pul kütləsinin artmasını şərtləndirən müxtəlif faktorlar var. Bunlardan biri zaman keçdikcə pulun dəyərsizləşməsidir: "Eyni dövriyyənin həyata keçirilməsi üçün daha böyük məbləğdə vəsaitə ehtiyac duyulur. Bu da pul kütləsinin artmasını zəruri edir. Məsələn, ötən il bir kiloqram yağa 17 manat xərcləyirdinizsə, bu il 24 manat ödəyirsiniz. Bu zaman dövriyyəyə daha çox vəsaitin buraxılmasına ehtiyac yaranır".

R.Həsənov bildirdi ki, pul dövriyyəsini artıran digər məqam hazırkı dövrdə nağdsız dövriyyənin populyarlaşmasıdır: "Bəzən bu, nağdsız dövriy-yənin miqyasının dəyişməsi ilə bağlı olur. Nağdsız dövriyyə azalır, nağd pula tələbat artır. Buna qeyri-qanuni fəaliyyətlər, infrastruktur çatışmazlıqları səbəb ola bilər. Bu zaman dövriyyədə olan pul artırılır, yeni pulların çap olunmasına zərurət yaranır".

Müsahibimizin sözlərinə görə, pul kütləsi həm də dövlət xərcləmələri çoxaldığı zaman artır: "Bu, Mərkəzi Bank yumşaq monetar siyasət həyata keçirdikdə ortaya çıxır. Bu zaman hökumətlər və mərkəzi banklar pul kütləsini inflyasiya, iqtisadi böyümə hədəflərinə uyğunlaşdırırlar. Bəzi hallarda durğun iqtisadi dövrlərdə hökumətlər pul kütləsini artırmaqla iqtisadi aktivliyi dəstəkləməyə çalışırlar. Bu da iqtisadiyyatda geniş istifadə olunan metodlardandır".



## "HESABLARIMIZDAKI VƏSAİTLƏRƏ TƏSİRİ YOXDUR"

İqtisadçı bu artımın vətəndaşlara təsirinə də toxundu: "Pul kütləsinin artmasının insanların hesablarında olan vəsaitlərə birbaşa təsiri yoxdur. Yalnız bu prosesdən iqtisadi mənfəət əldə edən subyektlərə münasibətdə onların daha çox gəlir əldə etməsi halı ortaya çıxır. Pul kütləsinin artması o demək deyil ki, vətəndaşların vəsaiti artıb. Əgər pul kütləsi artırsa, bunun səbəblərindən asılı olaraq, müəyyən nəticələr ortaya çıxa bilər. Məsələn, pul kütləsi dövlət xərcləri hesabına artırsa, onun bir qismi sosial xərcləmələrə yönəldilir. Məsələn, müavinətlər, təqaüdlər, əməkhaqları şəklində. Belə olanda, vətəndaşlar büdcədən faydalanmaq imkanı qazanırlar".

R.Həsənovun fikrincə, pul dövriyyəsinin artımı heç də həmişə yaxşı nəticələnmir: "Bu artım investisiya layihələrinin həyata keçirilməsinə yönəldilə bilər. Bu zaman biznes subyektləri üçün faydalı olacaq. Əgər monetar ekspansiyadan söhbət gedirsə, Mərkəzi Bank tərəfindən bazarda pul kütləsinin artırılması siyasətidirsə, bu halda vətəndaşların daha çox borclanması üçün şərait formalaşır. Bu vəsaitlər bazarda vətəndaşların daha rahat borclanması mühitini formalaşdırmaqla onların borc yükünün artmasına gətirib çıxaracaq bir vəziyyətlə nəticələnir. Amma həmin borclar iqtisadiyyatda xərclənir. Bu da iqtisadiyyatı hərəkətə gətirir, aktivliyi artırır. Bundan biznes, əmək bazarı iştirakçıları faydalanırlar. Pul kütləsinin bazarda artması sabit şəraitdə, digər iqtisadi faktorlar dəyişmədiyi halda baş verirsə, bu, inflyasiyanın artımı ilə nəticələnə bilər. İnflyasiya istiqa-mətində təzyiqlər forma-laşır".

## "BANKLAR VASİTƏSİLƏ DÖVRİYYƏYƏ DAHA ÇOX PUL BURAXILDI"

İqtisadçı Elçin Rəşidov isə düşünür ki, pul dövriyyəsinin artmasına səbəb Neft Fondundan gələn transferlərdir: "2025-ci ildə büdcə kəsirlə təsdiqləndi. Bu o deməkdir ki, büdcə gəlirləri və Neft Fondundan transferlər iqtisadiyyata axdı. Bu, büdcəyə əlavə pul daxil olmasına gətirib çıxardı. Bu da dövriyyədə olan pulun artması deməkdir. Həmçinin Mərkəzi Bankın uçot dərəcəsini aşağı salması ilə ölkədə kredit aktivliyi artır. Son dövrlərdə istehlak kreditlərində artım müşahidə olunur. Bu da banklar vasitəsilə dövriyyəyə daha çox pulun buraxılması deməkdir".



Elçin Rəşidov

E.Rəşidov bu artımın banklara təsirindən də danışdı: "Banklarda pulun çox olması likvidliyi artırır. Bu, banklar üçün müsbətdir. Dövriyyədə pul artdığı zaman bankların kredit vermək imkanları genişlənir. Onların gəlirləri artır. Amma paralel olaraq kredit portfelində problemli kreditlər də arta bilər".

### "İNFLYASİYA RİSKİ BİZNES ÜÇÜN DƏ TƏHLÜKƏLİDİR"

İqtisadçı həmçinin bildirdi ki, inflyasiya riski yaranarsa, gəlirlər nəzərə alınmayacaq: "Pulun dövriyyədə artmasını, az da olsa xidmət sektoruna görə bilirik. Bu il üçün xərclər artmaqla, iqtisadiyyatı canlandırmaqla birlikdə növbəti il üçün inflyasiya hazırlayır. Pul kütləsinin artması alıcılıq qabiliyyətini və xərcləmələri artırdığı təqdirdə inflyasiyanın da artması ilə əhalinin real gəlirlərinin azalmasına səbəb olur. İnflyasiya riski bizneslər üçün də təhlükəlidir. Onlar gələcəkdə zərər edə bilərlər. Dövriyyədə pul artanda vətəndaşların maaşları da artırılır. Amma nəzərə alaq ki, maaş artsa da, inflyasiya olsa, nəzərə çarpmır. Hətta daha da inkişaf edərsə, alıcılıq qabiliyyətini azaldır".

# MƏDƏNİYYƏT VƏ TƏBİƏTİN HARMONİYASI



**Malmö İsveçin üçüncü böyük şəhəridir. Ölkənin cənubunda, Skane bölgəsində yerləşir. Hazırda şəhərdə 600 mindən çox insan yaşayır. Əhalinin 40%-ni miqrantlar təşkil edir. Avropanın ən "immiqrant" şəhərlərindən biri hesab olunur.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Malmö və İsveçin digər bölgələrində təhlükəsizlik qaydalarına ciddi riayət etmək lazımdır. Gecələr küçələrdə gəzmək tövsiyə olunmur". İsveçə səfər etməyə hazırlaşanda eşitdiyim ilk tövsiyə bu oldu. Dedilər ki, orada silahlı qruplaşmalar var. Turistlər çantalarından ehtiyatlı olmalıdırlar...

İsveç hökuməti bu "damğa"dan xilas olmaq üçün əlindən gələn bütün işləri görür: ilboyu şəhərlərdə müxtəlif mədəni tədbirlər, konsertlər, sərgilər, festivallar keçirilir. Zəngin tarixə və mədəni müxtəlifliyə malik Malmö dünyanın hər yerindən turistləri cəlb edir. Bu müasir metropol 2016-cı ildə İsveçin "Ən xoşbəxt şəhəri" seçilib.

## QATAR SUYUN ALTINDAN KEÇİB KÖRPÜNÜN ÜZƏRİNƏ ÇIXIR

Kopenhagendən Malmöyə gündəlik qatarlar mərkəzi dəmir yolu stansiyasından yola düşür və səyahət 40 dəqiqə çəkir. Şimal və Baltik dənizlərini birləşdirən Oresund boğazı üzərindəki körpü Malmöyə çatmaqda əsas vasitədir. Səkkiz km uzunluğunda olan körpü Avropadakı ən uzun körpü sayılır. Bu il körpünün 25 illiyi qeyd edilir. Körpü ilə səyahət çox uzun olmasa da, özlüyündə bir macəradır: dənizə və hər iki şəhərə - Malmö və Kopenhagenə möhtəşəm mənzərələr təqdim edir. Qatar suyun altından keçib körpünün üzərinə çıxır. "Discovery Channel" bu keçidin yaranma tarixi haqqında "Planetin ən möhtəşəm tikililəri" seriyasından film çəkib.

Malmöyə çatanda "pasportları hazırlayın", - deyə sərnişinlərə xəbərdarlıq edilir. Şengen ərazisi olsa da, iki ölkə arasında ciddi sərhəd nəzarəti mövcuddur.

Malmö İsveçin üçüncü böyük şəhəridir, ölkənin cənubunda, Skane bölgəsində yerləşir. Liman şəhərinin tarixi 13-cü əsrdən - burada kiçik bir yaşayış məntəqəsinin yarandığı vaxtdan başlayır.

Hazırda Malmödə 600 mindən çox insan yaşayır. Əhalinin 40%-ni miqrantlar təşkil edir. Malmö Avropanın ən "immiqrant" şəhərlərindən biri hesab olunur. Şəhər əhalisinin 25 faizini müsəlmanlar təşkil edir. İmmiqrantların əksəriyyəti qonşu Danimarkanın vətəndaşlarıdır (burada qanunvericilik bir çox məsələlərdə daha sərtdir). Asiyalılar və məşhur futbolçu Zlatan İbrahimoviç kimi keçmiş Yuqoslaviya respublikalarından olan insanlar da çoxdur.

## DÜNYANIN EKOLOJİ CƏHƏTDƏN ƏN TƏMİZ ŞƏHƏRLƏRİNDƏN BİRİ

Əsas attraksionların əksəriyyəti mərkəzdən piyada 30 dəqiqəlik məsafədədir. Malmödə mükəmməl nəqliyyat şəbəkəsi var. Şəhər ən müasir metro şəbəkəsinə malikdir. Avtobuslar yaşıl rəngdədir. Malmö dünyanın ekoloji cəhətdən ən təmiz şəhərlərindən biri hesab olunur. Həmçinin Malmö Avropanın əsas velosiped şəhərlərindən biridir, səliqəli və nizamlı velosiped yolları var. Turistlər münasib qiymətə velosiped kirayələyib şəhərin küçələrini gəzir, tarixi ilə tanış olurlar. Burada yay isti, qış mülayimdir. Yağıntılar çox olur. Malmöyə səfər etməyin ən yaxşı vaxtı yay və payızın əvvəlidir. Amma turistlər mülayim iqlimə görə bu bölgəyə il boyu səfər edirlər. Qışda bölgə xizək sürməyi sevənləri cəlb edir. Turistləri Malmöyə cəlb etmək məqsədi daşıyan tədbirlərdən biri də 1985-ci ildən bəri keçirilən illik şəhər festivalıdır.







## ORTA ƏSR İSVEÇİNİN RUHU

Şəhərin ərazisi kiçik olduğundan turistlərə əsas görməli yerləri piyada gəzmək tövsiyə olunur. Mərkəzdəki ən qədim binanı - 1310-cu ildə tikilmiş Müqəddəs Pyotr kilsəsini ziyarət edib, şəhəri danimarkalılardan geri almağı bacaran adamın heykəlini görmək üçün "Town Hall" meydanına doğru irəliləyirəm. Şəhərdəki ən qədim aptek, kiçik mağazalar və suvenir mağazaları ilə bəzədilmiş piyada küçəsi və Malmönün simvolu - qızıl taclı Qrifinin yerləşdiyi "Qustav Adolf" meydanını gəzirəm.

Şəhərin tarixi hissəsində XVI-XIX əsrlərə aid köhnə küçələrə, həyətlərə və meydanlara baş çəkərək, orta əsr İsveçinin ruhunu hiss etməyə çalışıram.

## İNNOVASİYA MƏRKƏZİ KİMİ TANINAN ŞƏHƏR

Malmö innovasiya mərkəzi kimi tanınır: on min sakinə düşən patent müraciətlərinə əsasən "Forbes"in dünyanın ən ixtiraçı şəhərləri siyahısında dördüncü yeri tutur. Burada həm də skandinaviyalıların aparıcı həyat elmi klasteri olan Medicon Valley, eləcə də dünyanın bir sıra digər aparıcı İT və mobil şirkətləri yerləşir.

Malmö Universitetinin binası da müasir tikilidir. Universitet 1998-ci ildə yaradılıb və hazırda 24 minə yaxın tələbəsi var. "Malmö keçən əsrdə gəmiqayırma və tekstilə əsaslanan sənaye şəhəri idi. Lakin iqtisadi böhran buranı "bilik şəhəri" kimi yenidən kəşf etməyə təkan oldu", - deyə universitetin gənc müəllimi ilə söhbətim zamanı öyrənirəm: "Malmö Universitetində innovasiyaya uyğun sahibkarlıq mühiti formalaşıb. Bunun nəticəsində şəhər müasir elm, biznes və innovasiya mərkəzinə çevrilib".





Tanış olduğum türk qadın 20 ildən artıqdır Malmödə yaşadığını dedi: "İndi burada vəziyyət əvvəllər olduğu kimi deyil, get-gedə çətinləşir. Son illər immiqrantlar çox gəlib. İsveç onlara qapılarını açdı. İndi buralara gəlmək o qədər asan olmasa da, artıq yaşayış da çətinləşib".

## 10 İLDİR ALTI SAATLIQ İŞ REJİMİ TƏTBİQ EDİLİR

Malmödə yeniyetmələrdən tutmuş yaşlı insanlara qədər hamı ingiliscə yaxşı danışır. Şəhərdə müəssisələr, bir çox kafe və mağazalar gündəlik altı saat işləyir. Artıq 10 ildir ki, ölkədə rəsmi olaraq altı saatlıq iş günü tətbiq edilir. Bunun müqabilində müəssisə rəhbərləri iş saatlarında sosial şəbəkələrdən istifadədən və s. diqqət yayındıracaq fəaliyyətdən uzaq durmağı tapşırırlar. İsveçlilər hesab edirlər ki, altı saat işləyən insanlar daha enerjili olurlar və şəxsi həyatlarına, idmana, müxtəlif hobbilərinə daha çox vaxt ayırırlar. Özlərini daha xoşbəxt və uğurlu hiss edirlər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
26 İYUL ŞƏNBƏ 2025

Klublar yeni mövsümə daha güclü heyətlə başlamaq üçün ardıcıl şəkildə ciddi keçidlərə imza atırlar. Bu dəfə də gözlər əsasən Premyer Liqadadır. Yayın əsas transferləri "10-luğ"unda yeddi keçid ingilislərin adı ilə bağlıdır.



## SUPER LİQAYA "ULDUZ KÖÇÜ"

Türkiyə Super Liqası klubları da yayı sakit keçirmirlər. Ən ciddi keçidlər "Qalatasaray"ın adı ilə bağlıdır. "Sarı-qırmızılar" daha əvvəl icarə əsasında komandanın formasını geyinən Viktor Osimheni birdəfəlik alıblar. Bu keçid üçün İstanbul nəhəngi "Napoli"yə 74 milyon avro ödəyəcək. Məbləğin 40 milyonu bu il, qalan hissəsi isə növbəti il qarşı tərəfə veriləcək. "Qalatasaray"ın daha bir ciddi həmləsi Leroy Sanenin adı ilə bağlıdır. Almaniyalı vinger azad agent kimi "Bavariya"nı son Türkiyə çempionuna dəyişib. "Fənərbağça" və "Beşiktaş" da ulduz oyunçularla heyəti komplektləşdirməyə çalışırlar. "Sarı-lacivərdlilər" Con Duranla gücləniblər. Forvard "Əl-Nəsr"dən icarəyə götürülüb. Ondan başqa Sofyan Amrabat 12 milyon avroya birdəfəlik "Fiorentina"dan alınıb. Arçi Braun üçün isə "Gent"ə səkkiz milyon avro ödənilib. "Beşiktaş" hücum xəttinə Temmi Abrahamı cəlb edib. "Qara qartal" ingilis forvardı "Roma"dan icarəyə götürüb. Türkiyə millisinin üzvü Orkun Kökçü də növbəti mövsüm "Beşiktaş"da oynayacaq. O, "Benfika"dan gəlib.

# TRANSFER BAZARINDA HƏRƏKƏTLİLİK PİK HƏDDƏ

Futbol dünyası ən maraqlı dövrlərdən hesab olunan transfer dönəmini yaşayır. İyulun ortasında transfer bazarında hərəkətlilik pik həddə çatıb, klublar yeni mövsümə daha güclü heyətlə başlamaq üçün ardıcıl şəkildə ciddi keçidlərə imza atırlar. Bu dəfə də gözlər əsasən Premyer Liqadadır. Sanki dünya futbolunun mərkəzi artıq təkcə meydanda deyil, transfer masasında da İngiltərədir.

### İNGİLİS HEGEMONLUĞU

Son illər mövcud olan ənənə bu yay da dəyişməyib. Yenə İngiltərə Premyer Liqası transfer bazarında hegemonluq edir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, yayın əsas transferləri "10-luğ"unda yeddi keçid ingilislərin adı ilə bağlıdır. Özü də burada bir yox, bir neçə klubun adına rast gəlmək mümkündür. Digər başlıca keçidlərin də əksəriyyətində "Dumanlı Albion" təmsilçilərinin imzası var. Burada son çempion "Liverpul"la yanaşı, "Arsenal", "Mançester Yunayted", "Çelsi", "Mançester Siti", "Nyukasl" kimi klublar xüsusi fəallıqları ilə seçilirlər. "Barselona", PSJ, "Bavariya", "Milan", "İnter" kimi böyük klublar isə hələlik səssizdirlər.

### YAYIN "ƏN QIZMAR" TRANSFERLƏRİ

Yay transfer pəncərəsində baş tutan ən böyük ödənişli transfer hələlik Florian Virtsin "Bayer"dən "Liverpul"a keçididir. Mersisayd təmsilçisi almaniyalı gənc oyunçu üçün qarşı tərəfə 125 milyon avro ödəyib. "Qırmızılar" müdafiə xəttinin cinahlarına da əl gəzdiriblər. "Real Madrid"in yolunu tutan Trent Aleksander-Arnoldun əvəzinə "Bayer"in digər ulduzu Jeremi Frimponqu heyətinə qatan klub bu keçid üçün 40 milyon avrosundan keçibsə, Miloş Kerkesə görə "Bornmut"a 47 milyon avro ödəniş edilib.




### RAYAN ŞERKİ ÜÇÜN 36,5 MİLYON AVRO

Yüksək ödənişlərə görə "Liverpul"u digər Premyer Liqa təmsilçisi "Mançester Yunayted" izləyir. Son illər uğur qazanmaqda çətinlik çəkən "qırmızı şeytanlar" Brayan Mbuemo üçün "Brentford"a 75 milyon avro, Mateus Kunyanın müqabilində "Vulverhempton"a 74 milyon avro ödəməkdən çəkinməyiblər. Şəhərin digər təmsilçisi "Mançester Siti" isə "Milan"dan Ticani Reyndersi heyətinə qatmaqla səs-küylü keçid həyata keçirib. Niderlandlı üçün qarşı tərəfə 55 milyon avro ödənilib. Rayan Ait Nuri 36,8 milyon avroya, Rayan Şerki isə 36,5 milyon avroya başa gəlib.

London təmsilçilərindən "Çelsi" və "Arsenal" da transferlərlə çempionluğa iddialarını göstərirlər. "Topçular" Martin Zubimendi üçün "Real Sosyedad"a 70 milyon avro, Noni Madueke üçün isə "zadəganlar"a 55 milyon avrodan bir qədər artıq ödəniş ediblər. "Çelsi"yə gəlincə, klub Dortmund "Borussiya"sından Ceymi Qittensi, "Brayton"dan Joau Pedronu, "İpsviç"dən Liam Delapı, "Palmeyras"dan isə Estevanı transfer edib. Bu keçidlərə görə müvafiq olaraq 64, 63, 35 və 34 milyon avro ödəniş edilib.

Transfer mənasında ingilislərə müəyyən qədər rəqabət göstərən "Real Madrid"dir. Ötən mövsüm uğursuz olan "kral klubu" Trent Aleksander-Arnoldla yanaşı, "Bornmut"dan 62.5 milyon avroya Din Huyseni, "River Pleyt"dən 45 milyon avroya Franko Mastanduononu alıb.

## PREMYER LİQAMIZA GƏLƏN AZAD AGENTLƏR




Azərbaycan Premyer Liqasında legioner limitinin ləğv olunması əcnəbi transferində fəallığı artırıb. Demək olar, bütün klublar – avrokubok iştirakçılarından elitaya yeni vəsiqə qazananlara qədər – transfer bazarında fəallıq göstərirlər. Lakin, əlbəttə, qitəmiqyaslı yarışlarda çıxış edənlər prosesə daha əvvəldən başlayıblar. Transfer edilən futbolçuların əksəriyyəti azad agentlərdir. Yalnız "Neftçi" İmad Farac üçün Kipr AEK-inə 700 min avro, Sessi D'Almeida müqabilində bu ölkənin digər təmsilçisi "Apollon"a 200 min avro, Freddi Varqasa görə Netanya "Makkabi"sinə 175 min avro ödəniş edib. "Qarabağ" isə Dani Boltu Portuqaliya "Torrense"sindən havayı almayıb. Lakin məbləğ barədə dəqiq informasiya yoxdur. "Araz-Naxçıvan" isə Ba-Muaka Simakala üçün 200 min avro xərcə düşüb. Ümumilikdə, bu yay ölkəmizə gələn ən dəyərli oyunçular "Qarabağ"ın yeni transferləri Pedro Bikalyo, Dani Bolt və "Neftçi"nin yeni üzvü İmad Faracdır. Pedro və İmad bir milyon avro dəyərləndirilirsə, Daninin qiyməti 800 min avrodur.

Hələ transfer pəncərəsinin bağlanmasına bir aydan çox müddət var. Bu isə o deməkdir ki, yay keçidləri tamamlanmayıb.